# AZƏRBAYCAN DİLİ

# 3

tədris dili

**DƏRSLİK**



2-ci hissə

LAYİHƏ





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

LAYİHƏ

LAYİHƏ

RAFİQ İSMAYILOV, ÜLKƏR NURULLAYEVA, ŞƏHLA ZAHİDOVA,
İRADƏ BAYRAMOVA, AYSEL XANALIYEVA, KÖNÜL CƏLİLOVA

# AZƏRBAYCAN DİLİ 3

(tədris dili)

Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün
Azərbaycan dili fənni üzrə dərslik
(2-ci hissə)

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **artitrm2017@gmail.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

LAYİHƏ

# İçindəkilər

## 5 İXTİRALAR


| Fəsillər | səhifə |
|---|---|
| 1 • ZƏKA VƏ İXTİRA | 8 |
| 2 • ƏN MÜHÜM İXTİRA | 14 |
| 3 • İXTİRAÇI UŞAQLAR | 18 |
| 4 • ÖZÜN DÜZƏLT | 22 |
| 5 • RƏQƏMLƏRİN TARİXİ | 26 |
| Ümumiləşdirici təkrar | 31 |




## 6 UNUDULMAZ QƏHRƏMANLAR


| Fəsillər | səhifə |
|---|---|
| 1 • HÜNƏR GÖSTƏR, AD QAZAN | 34 |
| 2 • EL İGİDLƏRİ İLƏ TANINAR. | 38 |
| 3 • İGİD DÖYÜŞDƏ BƏLLİ OLAR | 42 |
| 4 • QƏHRƏMANLAR UNUDULMUR | 46 |
| 5 • MÖHTƏŞƏM DÖNÜŞ | 50 |
| Ümumiləşdirici təkrar | 55 |




## 7 ODLAR YURDU


| Fəsillər | səhifə |
|---|---|
| 1 • ODLAR OĞLU | 58 |
| 2 • GÖYÇƏ GÖLÜ | 62 |
| 3 • AZƏRBAYCAN MUSİQİSİ | 66 |
| 4 • QIZ QALASI | 70 |
| 5 • AZƏRBAYCAN QALALARI | 74 |
| Ümumiləşdirici təkrar | 79 |




## 8 HİKMƏT XƏZİNƏSİ


| Fəsillər | səhifə |
|---|---|
| 1 • ƏMƏKSEVƏRLİK | 82 |
| 2 • NƏSİHƏT | 86 |
| 3 • BİRLİK | 90 |
| 4 • YUMOR VƏ HİKMƏT | 94 |
| 5 • MƏHARƏT | 98 |
| Ümumiləşdirici təkrar | 102 |




LAYİHƏ

# Kitabınla tanış ol

**SÖZ BOĞÇASI**
Mövzu ilə bağlı yeni sözlər

**Söz boğçası**
- siferblat
- gil
- yosun

**BUNLARI BİLMƏLİYİK**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı ümumi anlayışlar

**DİQQƏT ET**
Dil qaydaları ilə bağlı əlavə məlumatlar

## Dil qaydaları

**4 A Verilmiş cümlələrdə qırmızı rəngdə olan sözlər səhv yazılmışdır. Həmin sözlərin düzgün yazılışını müəyyən edin.**
- Ocaq qalamaq və yeməy hazırlamaq lazım idi.
- Həmin nöqtədə yandırıcı istiliy əmələ gəlir.

**• Bunları bilməliyik • SÖZ SONUNDA "k" SAMİTİNİN YAZILIŞI**

Bəzi sözlərin sonunda ***k*** samiti fərqli səslənir. Bu cür sözlərin yazılışına xüsusi diqqət etməliyik.

| Doğru | Yanlış |
|---|---|
| bilik | biliy |
| ürək | üray |

Həmin sözlərə **saitlə başlayan şəkilçi** qoşulduqda **k** samiti **y** samiti ilə əvəz olunur: çiçə**k** – çiçə**y**in – çiçə**y**ə

**B Verilmiş sözlərə -a$^{2}$, -ı$^{4}$, -ın$^{4}$ şəkilçilərindən birini əlavə edib köçürün. Bu zaman *k-y* əvəzlənməsinə diqqət edin.**
*Nümunə: ərik – əriyi*
*yeşik, çiçək, leylək, dibçək, ördək, ləçək, pencək*

**C *"Yelləncək"* sözünü uyğun şəkildə dəyişərək nöqtələrin yerinə yazıb köçürün.**
1. Uşaqlar növbə ilə ... yellənirdilər.
2. Hamı onun düzəltdiyi ... tamaşa edirdi.
3. Arzu ... yıxıldı.
4. Bu ... atam asmışdı.
5. Qırıq ... üstündə oturmaq təhlükəlidir.

**• Diqqət et •**
"**K**" samiti ilə bitən bəzi sözlərdə ***k-y*** əvəzlənməsi baş vermir. Məsələn, yük – yükü

**Ç Hansı sözlərə saitlə başlanan şəkilçi artırdıqda *k-y* əvəzlənməsi baş vermir?**
*təbrik, ipək, türk, alcak, iştirak*

5-ci bölmə • İXTİRALAR 13

**YADDA SAXLA**
Nitq bacarıqları ilə bağlı yeni anlayışlar

**• Yadda saxla • Yarımbaşlıqlar**
Obrazlar xəritəsi oxucuya mətndəki obrazları təhlil etməyə kömək edir. Obrazlar xəritəsində, əsasən, aşağıdakılar göstərilir:

**FAYDALI MƏSLƏHƏT**
Dil qaydaları və nitq bacarıqları ilə bağlı tövsiyələr

**Faydalı məsləhət**
Təqdimata hazırlaşarkən qeydlərimizi müəyyən başlıqlar altında qruplaşdıra bilərik. Bu cür qruplaşdırma **yaddaş xəritəsi** adlanır.

LAYİHƏ

# 5 İXTİRALAR

**A** **Şəkillərdə gördüyünüz ixtira və kəşflər haqqında bildiklərinizi danışın.**

## OD



## İPƏK



BARAMADAN İPƏK PARÇANIN ALINMASI

## MORZE ƏLİFBASI



*Samuel Morze*

| | | | | | |
|---|---|---|---|---|---|
| A | •– | J | •––– | S | ••• |
| B | –••• | K | –•– | T | – |
| C | –•–• | L | •–•• | U | ••– |
| D | –•• | M | –– | V | •••– |
| E | • | N | –• | W | •–– |
| F | ••–• | O | ––– | X | –••– |
| G | ––• | P | •––• | Y | –•–– |
| H | •••• | Q | ––•– | Z | ––•• |
| I | •• | R | •–• | | |

LAYİHƏ

**B** **Sizcə, şəkillərdə verilmiş ixtiralar hansı ehtiyacdan yaranmışdır? Onların faydası haqqında danışın.**

TOZSORAN



POZAN



PALTARYUYAN



PULT



**C** **Hansı əşyaların ixtirası haqqında məlumat əldə etmək istərdiniz? Seçiminizi izah edin.**

**Ç** **Siz nə ixtira etmək istərdiniz?**

**D** **Aşağıdakı təlimata uyğun olaraq ixtiranız haqda təqdimat edin.**

1) İxtira etmək istədiyiniz əşyanı təsvir edin.
2) Niyə bu əşyanı ixtira etmək istərdiniz?
3) Bu ixtira üçün sizə hansı biliklər və materiallar lazımdır?

LAYİHƏ

# ZƏKA VƏ İXTİRA

**1 A** **Təsəvvür edin ki, kimsəsiz bir adaya düşmüsünüz. Orada hansı çətinliklərlə qarşılaşa bilərsiniz? Nəyə ehtiyacınız ola bilər?**

## MİSTER SMİTİN İXTİRASI

**I hissə** Qasırğaya düşmüş hava balonu buludların arası ilə sürətlə irəliləyirdi. Göz işlədikcə hər tərəf okean suları idi. Ətrafda nə bir torpaq, nə də gəmi görünürdü. Birdən mühəndis Smitin iti hürməyə başladı. Smit anladı ki, o nə isə görüb. İtin hürdüyü istiqamətə baxdı və qışqırdı:

– Torpaq!

Ancaq sahil xeyli uzaqda idi. Ora çatana qədər balonun havada qalması möcüzə olardı.

Hava balonunda beş sərnişin var idi. Aralarında mister Smit iti ağlı və zəkası ilə digərlərindən seçilirdi. Yaxşı təhsil almış mühəndis həm işgüzar, həm də diribaş idi. Düşdüyü hər çətin vəziyyətdən bir çıxış yolu tapmağı bacarırdı. Zəngin bilikləri və güclü iradəsi hər zaman köməyinə çatırdı.

Hava balonu yavaş-yavaş aşağı enirdi. Onlar, demək olar ki, suyun səthi ilə quruya yaxınlaşırdılar. Birdən hündür bir dalğa balona çırpılıb onu silkələdi. Hamı qışqırdı. Amma elə həmin güclü dalğa bir göz qırpımında onları sahilə çıxartdı.

Qumun üzərinə sərilmiş səyyahlar bir azdan özlərinə gəlib ətrafa boylandılar. Onlar yalnız dörd nəfər idilər; mühəndis Smit yoxa çıxmışdı. Onun iti sahibini tapmaq üçün sahilboyu ora-bura qaçırdı. Hamı təşviş içərisində onu axtarırdı.

Dənizçi Conatan tonqal qalamağı təklif etdi. Bu,





Layihə

mühəndis üçün işarə ola bilərdi. Lakin heç kimdə kibrit yox idi.

Hava çox soyuq idi. Ocaq qalamaq və yemək hazırlamaq lazım idi. Hamı bilirdi ki, bu vəziyyətdə çətinliklərin öhdəsindən yalnız mister Smit gələ bilər. Amma Smit heç yerdə gözə dəymirdi.

Soyuq hava və aclıq hər kəsi əldən salmışdı. Hava isə artıq qaralırdı. Sabahı gözləməkdən başqa çarələri qalmamışdı.

**Söz boğçası**
- qasırğa
- göz işlədikcə
- zəka
- mühəndis
- işgüzar
- diribaş
- sərnişin
- gözə dəymək

## Nə anladın?

**B** **Mətn əsasında suallara cavab verin.**
1. Sərnişinlər hansı nəqliyyat vasitəsilə yola çıxmışdılar?
2. Hansı təbii fəlakət qəzaya səbəb oldu?
3. Onlar ətrafda torpağın olduğunu necə müəyyən etdilər?
4. Qəzada kim itkin düşdü?

## Düşün və cavab ver

**C** **Kimsəsiz adada tonqal qalamaq nə üçün vacib idi? Conatan tonqal vasitəsilə mühəndisə necə işarə vermək istəyirdi?**

**Ç** **Sizcə, əsər qəhrəmanları kimsəsiz adada hansı çətinliklərlə üzləşə bilərlər? Şəkillərə baxaraq həmin problemlərin həlli yolları haqqında danışın.**





**D** **Sizcə, hansı obraz əsərin baş qəhrəmanıdır? Mətnə istinad etməklə cavabınızı əsaslandırın.**

LAYİHƏ

**2 A** **Sizcə, mühəndis Smit tapılsa, səyyahların qarşılaşdığı problemləri necə həll edəcək?**

**II hissə** Səhər onlar itin səsinə ayıldılar. Smitin iti Conatanın şalvarından tutub onu hara isə dartırdı. Hamı həmin istiqamətə yollandı. İt onları bir mağaranın qarşısına apardı. Mister Smit burada idi. O, yerdə uzanmışdı. Bir müddət sonra mühəndis ayılmağa başladı. İlk sözləri bu oldu:

– Bura haradır, biz haradayıq?

– Bilmirik, mister Smit. Deyəsən, kimsəsiz adaya düşmüşük, – deyə dənizçi cavab verdi.

– Bəs yeməyə nəsə bir şey var? Ocaq qalaya bilmisiniz?

– Xeyr, cənab Smit. Heç birimizdə kibrit yoxdur.

– Aydındır, narahat olmayın. Bir yol taparıq. Siz bişirmək üçün bir şey tapın. Yəqin ki, buralarda yeməli bitkilər, ov heyvanları olmamış deyil.

Sonra Smit Herbertin qolundakı saata baxıb əlavə etdi:

– Herbert, sən mənimlə qal.

Conatan təəccüblə mühəndisə baxdı, amma bir söz demədi. Yoldaşları ilə birlikdə ov üçün meşəyə getdi.

Bir müddətdən sonra onlar geri qayıdanda qayalardan göyə qalxan tüstünü gördülər. Dənizçi ora çatan kimi soruşdu:

– Ocağı necə qaladınız?

– Günəş! – deyə Herbert gülümsəyərək cavab verdi:

Mühəndis Conatanın heyrətdən bərəlmiş gözlərini görüb izah etdi:

– Özümün və Herbertin saatından siferblatları çıxartdım. Onların kənarlarını gillə yapışdırdım. Sonra düzəltdiyim şüşəni günəş şüalarının altına tutdum. Belə şüşə günəş şüalarını bir nöqtəyə yönəldə bilir. Həmin nöqtədə yandırıcı istilik əmələ gəlir. Şüşəni quru yosunların üzərində saxladım və onlar dərhal yandı.

Dənizçi heyranlıqla Smitə baxıb dilləndi:

– Mister Smit, siz dahisiniz!

*Jül Vernin "Sirli ada" əsərindən*

**Söz boğçası**

- siferblat
- gil
- yosun



Layihə

## Nə anladın?

**B** **Mətn əsasında suallara cavab verin.**

1. Mister Smit necə tapıldı?
2. Mühəndis nə üçün məhz Herberti yanında saxladı?
3. Mətndəki obrazlardan neçəsinin adı çəkilmir?

## Düşün və cavab ver

**C** **Hansı şəkildəki əşya mister Smitin düzəltdiyi əşyanı əvəz edə bilər? Fikrinizi əsaslandırın.**






**Ç** **Mətni oxuyun və başlıq verin. Mister Smit və Arximedin ixtiralarını müqayisə edin.**

Arximed məşhur yunan riyaziyyatçısı olub. O, bir çox ixtira və kəşflər etmişdir. Bir dəfə düşmən gəmiləri Arximedin yaşadığı Sirakuz şəhərinə hücum edir. Arximed çoxlu dairəvi güzgü düzəldir. Həmin güzgülərlə günəş şüalarını düşmən gəmilərinin üzərinə yönəldir. Bu zaman yaranan istilik gəmilərin yanmasına səbəb olur.

Beləliklə, Arximed öz ixtirası ilə doğma şəhəri Sirakuzu düşməndən xilas edir.



## Araşdırma

**D** **Kibritin ixtirası haqqında araşdırma aparın.**

LAYİHƏ

**3 A** **“Mister Smitin ixtirası” mətni bədii, yoxsa informativ mətndir? Fikirlərinizi əsaslandırın.**

**B** **“Mister Smitin ixtirası” mətni ilə bağlı suallara cavab verin.**
- Mətndə hansı epizodlar var? Onları yarımbaşlıqlar şəklində sadalayın.
- Əsas epizod hansıdır?
- Baş qəhrəmanın xarakteri hansı epizodlarda açılır?
- Bu mətni yazmaqla müəllif oxucuya hansı fikri çatdırmaq istəyir?

**C** **Sizcə, necə oldu ki, mister Smit yoldaşlarından ayrı düşdü? 1-ci hissədəki: – *“Birdən hündür bir dalğa balona çırpılıb onu möhkəm silkələdi...”* cümləsinə diqqət yetirin. Bu cümlədən başlayaraq mister Smitin başına gələnləri təxəyyülünüzə uyğun danışın.**

**Ç** **Araşdırdığınız materiallar və müəllimin təqdim etdiyi məlumatlar əsasında kibritin ixtirası haqqında hekayə qurub təqdim edin. Aşağıdakı təlimat və şəkillərdən istifadə edin.**

**Faydalı məsləhət** **HEKAYƏ**

**Hekayə yazarkən aşağıdakı tövsiyələrə əməl edin:**
1. Bu hekayəni yazmaqda məqsədinizi müəyyənləşdirin.
2. Hekayədə təsvir olunacaq hadisələri, əsas epizodu müəyyən edin.
3. Hekayənin baş qəhrəmanını, zahiri görünüşünü və xarakterini təsvir edin.

### Giriş
- Hekayənin qəhrəmanı (ixtiraçı Con Volker) haqqında **məlumat**

### Əsas hissə
- Hadisənin baş verdiyi **zaman** və **məkan**
- Hadisənin təsviri

### Sonluq
- Hadisənin nəticəsi



LAYİHƏ

# Dil qaydaları

**4 A** **Cümlələrdə qırmızı rəngdə verilmiş sözlər səhv yazılmışdır. Həmin sözlərin düzgün yazılışını müəyyən edin.**

- Ocaq qalamaq və yeməy hazırlamaq lazım idi.
- Həmin nöqtədə yandırıcı istiliy əmələ gəlir.

**• Bunları bilməliyik •** **SÖZ SONUNDA "k" SAMİTİNİN YAZILIŞI**

Bəzi sözlərin sonunda **"k"** samiti fərqli tələffüz olunur. Bu cür sözlərin yazılışına xüsusi diqqət etməliyik. Həmin sözlərə **saitlə başlayan şəkilçi** qoşulduqda **k** samiti **y** samiti ilə əvəz olunur:

*çiçə**k** – çiçə**y**in – çiçə**y**ə*

| Doğru | Yanlış |
|---|---|
| bilik | biliy |
| ürək | ürəy |

**B** **Verilmiş sözlərə -a², -ı⁴, -ın⁴ şəkilçilərindən birini əlavə edib köçürün. Bu zaman *k-y* əvəzlənməsinə diqqət edin.**

*Nümunə: ərik – əriyi*

*yeşik, çiçək, leylək, dibçək, ördək, laçək, pencək*

**C** ***"Yelləncək"* sözünü uyğun şəkildə dəyişərək nöqtələrin yerinə yazıb köçürün.**

1. Uşaqlar növbə ilə ... yellənirdilər.
2. Hamı onun düzəltdiyi ... tamaşa edirdi.
3. Arzu ... yıxıldı.
4. Bu ... atam asmışdı.
5. Qırıq ... üstündə oturmaq təhlükəlidir.

**• Diqqət et •**

"K" samiti ilə bitən bəzi sözlərdə ***k-y*** əvəzlənməsi baş vermir. Məsələn, *yük – yükü*

**Ç** **Hansı sözlərə saitlə başlanan şəkilçi artırdıqda *k-y* əvəzlənməsi baş vermir?**

*təbrik, ipək, türk, əlcək, iştirak*

LAYİHƏ

# •fəsil• 2 ƏN MÜHÜM İXTİRA

**1 A** **Şəkildə gördüklərinizdən hansı daha əvvəl ixtira edilib?**



**TƏKƏRİN İXTİRASI** Ətrafınıza diqqətlə baxsanız, görərsiniz ki, bir çox mexanizmləri hərəkətə gətirən əsas hissələr təkər formasındadır. Yalnız avtomobillər, qatarlar deyil, təyyarələr, gəmilər də təkər vasitəsilə hərəkətə gəlir. Lakin təkər buna qədər böyük bir inkişaf yolu keçmişdir.

**İlk təkərləri necə düzəldirdilər?**

Qədimdə insanlar ağır yükü daşımaq üçün onu ağac tirlərinin üzərinə qoyub diyirlədirdilər. Beləliklə, onlar dairəvi əşya üzərində yükdaşımanın daha rahat olduğunu anlamışdılar. İndi əsas məsələ prosesi təkmilləşdirmək idi.



İnsanlar iri ağac tirlərini köndələn kəsib dəyirmi lövhələr hazırladılar. Sonra lövhənin mərkəzində deşik açdılar. İki dəyirmi lövhəni qalın taxta çubuqla – oxla birləşdirdilər.

Beləcə, ilk nəqliyyat vasitəsi – araba yarandı.

**•Söz boğçası•**

- mexanizm
- təkmilləşdirmək
- köndələn
- təkan vermək
- texnika



Layihə

**Təkərdən nə üçün istifadə edilirdi?**

Arabalar insanların işini xeyli yüngülləşdirdi. Onlardan yükdaşımada, gəzintidə, döyüşlərdə istifadə edilirdi.

Bu gün təkər bizə adi görünə bilər. Lakin onun ixtirası elm və texnikanın inkişafına təkan verdi. Təkər olmasaydı, nə dəyirman, nə də nəqliyyat vasitələri ola bilərdi.



## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Təkər düzəltmək ideyası necə yarandı?
2. Təkərin ixtirasından sonra yaranan ilk nəqliyyat vasitəsi hansı oldu?

## Düşün və cavab ver

**C** **Şəkil əsasında təkərin təkmilləşməsi haqqında danışın.**

**Açar sözlər:** *daş, köndələn, ağac lövhə, ağır, yüngül, rezin, dəmir, hava*



**Ç** **Şəkillər əsasında təkərin ixtirasının digər ixtiralardakı rolu haqqında danışın.**









**D** **Sizcə, təkər niyə mühüm ixtira hesab olunur? Bu barədə məlumat mətnin hansı hissəsində əks olunmuşdur?**

LAYİHƏ

**2 A** **Mətni oxuyun və açar sözləri seçib yazın.**

**İLK METRO** İnsanların həyatını asanlaşdıran ən mühüm ixtiralardan biri də metrodur. Tam adı yunan dilindəki "metropolis" sözündən götürülmüşdür. Mənası "baş şəhər" deməkdir. İlk metro 1863-cü ildə Londonda işə salınmışdır.

Azərbaycanda isə 1967-ci il noyabrın 6-da Bakı metropoliteninin ilk 5 stansiyası istifadəyə verilmişdir.

**Faydalı məsləhət** QEYDGÖTÜRMƏ

Mətni oxuyarkən və ya dinləyərkən qeydlər götürə bilərik. Qeydlər mətni daha yaxşı anlamağa və yadda saxlamağa kömək edir.

**Qeyd vərəqində açar sözlər yazılır:**

– faktlar
– rəqəmlər
– şəxs və məkan adları

• Nümunə •

***("İlk metro" mətnindən qeydlər)***

- "metropolis" (baş şəhər)
- 1863-cü il, London
- 1967-ci il, Bakı
- 5 stansiya

**B** **"Beynəlxalq İşıqfor Günü" mətnini dinləyin. Aşağıdakı qeydlər əsasında mətni nəql edin.**

**Beynəlxalq İşıqfor Günü**

- *5 avqust 1914-cü il*
- *Ceyms Hoq*
- *Amerika, Klivlend şəhəri*
- *2 rəng: qırmızı və yaşıl*
- *Səsli işıqfor*

LAYİHƏ

## Dil qaydaları

3 A **Cümlələrdə qırmızı rəngdə verilmiş sözlər səhv yazılmışdır. Həmin sözlərin düzgün yazılışını müəyyən edin.**

• Qədimdə insanlar ağır yükü daşımağ üçün onu ağac tirlərinin üzərinə qoyub diyirləyirdilər.

• İki dairəvi formada olan lövhəni qalın taxta çubuxla birləşdirdilər.

• Bunları bilməliyik • SÖZ SONUNDA "Q" SAMİTİNİN YAZILIŞI

***Q*** samiti ilə bitən bəzi sözlərdə bu samit ***ğ*** və ya ***x*** kimi səslənir. Bu cür sözlərin yazılışına diqqət etməliyik.

| Doğru | Yanlış |
|---|---|
| qonaq | qonağ, qonax |
| ocaq | ocağ, ocax |

Həmin sözlərə saitlə başlayan şəkilçi qoşulduqda ***q*** samiti ***ğ*** samiti ilə əvəz olunur: *ota**q** – ota**ğ**ın – ota**ğ**a.*

B **Verilmiş sözlərə -ın[4], -dan[2] şəkilçilərini əlavə edib köçürün.**

*Nümunə: qayıq – qayığa – qayıqdan*

*daraq, moruq, papaq, pambıq, oraq, qulaq, bulaq*

C ***"Otaq"*** **sözünə uyğun şəkilçilər əlavə edərək cümlələri köçürün.**

1. Atam ... daxil oldu.
2. O, ... səliqə yaratdı.
3. Sona ... havasını dəyişdi.
4. Arzu ... çıxdı.
5. Adil ... yoldaşlarına göstərdi.

Ç **Hansı sözlərə saitlə başlanan şəkilçi artırdıqda q-ğ əvəzlənməsi baş vermir? Həmin sözləri cümlədə işlədib yazın.**

*məntiq, qulaq, tapşırıq, şəfəq, qoruq, xalq, dayaq, barmaq, dostluq, dialoq*

• Diqqət et •

"Q" samiti ilə bitən bəzi sözlərdə **q-ğ** əvəzlənməsi baş vermir.
Məsələn, *varaq – varaqi*

LAYİHƏ

# İXTİRAÇI UŞAQLAR

**1 A** **İnsanlar nə üçün hərfləri ixtira etdilər?**

**B** **Morze əlifbasını xatırlayın. Bu əlifbada hansı işarələrdən istifadə edilirdi? Morze əlifbasına ehtiyac nədən yarandı?**

## BRAYL ƏLİFBASI

Bildiyimiz kimi, insan informasiyanı, əsasən, dinləməklə və ya oxumaqla əldə edir. Ancaq elə insanlar var ki, onlar görmə və ya eşitmə qabiliyyətindən tamamilə və ya qismən məhrumdurlar.

Təxminən 200 il əvvəl Fransada yaşamış Luis Brayl da belə uşaqlardan biri idi. Altı yaşı olanda o, bədbəxt hadisə nəticəsində görmə qabiliyyətini itirmişdi. Buna baxmayaraq o da başqa uşaqlar kimi oxumaq, təhsil almaq istəyirdi.

15 yaşına çatanda Luis görmə qabiliyyətindən məhrum uşaqlar üçün əlifba yaratmaq qərarına gəldi. O bilirdi ki, bu cür insanlarda digər duyğu üzvləri daha güclü inkişaf edir. Onlar daha yaxşı eşidirlər, dəriləri daha həssas olur. Deməli, bu əlifbada elə hərflər olmalı idi ki, insanlar barmaqları ilə toxunaraq onları hiss etsinlər. Bunları nəzərə alaraq Luis görmə qabiliyyətindən məhrum insanlar üçün şriftlər yaratdı. Şriftlərin hər biri altı xanadan ibarət idi. Xanalardan bəziləri qabarıq idi.



**A** *hərfi*



**N** *hərfi*

Şriftlərdəki qabarıq xanaların müəyyən qayda ilə düzülüşü hər hansı hərfi ifadə edirdi. Görə bilməyən insanlar barmaqlarını toxundurmaqla qabarıq xanaları asanlıqla hiss edirdilər.



Brayl əlifbasında rəqəmləri də işarə edən şriftlər var idi.

Tezliklə Braylın əlifbası bütün dünyada istifadə olunmağa başladı. Bu əlifba ilə kitablar, jurnallar, qəzetlər çap olundu.

Bu gün bütün dünyada 4 yanvar tarixi Brayl Əlifbası Günü kimi qeyd olunur.

LAYİHƏ

## Nə anladın?

**C** **Mətnə aid suallara cavab verin.**

1. Brayl əlifbası kimlər üçün nəzərdə tutulmuşdu?
2. Brayl əlifbasında hərflər necə işarələnirdi?
3. Brayl nə üçün məhz qabarıq nöqtələrdən istifadə etdi?

**Söz boğçası**
- bədbəxt
- məhrum olmaq
- qabiliyyət
- qabarıq
- şrift

## Düşün və cavab ver

**Ç** **Brayl əlifbası ilə “Azərbaycan” sözü verilmişdir.**
**Həmin sözdən özünüz sözlər yaradın və Brayl əlifbası ilə yazın.**



**D** **Qruplarla iş**

**Müqayisə cədvəli tərtib etməklə əlifbaları müqayisə edin.**
**1-ci qrup: Morze əlifbası ilə Brayl əlifbasını;**
**2-ci qrup: Azərbaycan əlifbası ilə Brayl əlifbasını;**
**3-cü qrup: Azərbaycan əlifbası ilə Morze əlifbasını.**

**Əlifbalar haqqında verilmiş məlumatlardan istifadə edə bilərsiniz.**

1. Hər hərfin öz cizgisi var.
2. İki işarədən – nöqtə və tiredən istifadə olunur.
3. Qabarıq nöqtələrin müxtəlif düzülüşündən istifadə olunur.
4. Hər bir hərf müəyyən səsi bildirir.
5. Uzaq məsafəyə məlumat göndərmək üçün istifadə olunur.
6. Böyük və kiçik hərflərin müxtəlif ölçüləri və formaları var.
7. Görmə qabiliyyətindən məhrum insanlar üçün yaradılıb.

**E** **Sizcə, eşitmə qabiliyyətini itirən insanlar necə ünsiyyət qururlar?**

**Ə** **Cütlərlə iş**

**Mimika və jestlərdən istifadə etməklə cümlələri yoldaşlarınıza başa salın.**

- O mənim dostumdur.
- Mən üçüncü sinifdə oxuyuram.
- Mən ağacdan beş alma dərdim.



LAYİHƏ

**2 A** **Sizcə, eşitmək və dinləmək eynimənalı sözlərdir?**

**B** **Rollu oxu** **Mətni oxuyun.**

**UŞAQLARIN NAĞILI** Uşaqlar bağçada yığışıb söhbət edirdilər. Gülnar dedi:

– Gəlin bir yerdə nağıl uyduraq. Birimiz bir cümlə deyək. Qalanlarımız növbə ilə onun davamını söyləyək. İstəyirsiniz, mən başlayım?

– Başla, başla.

Gülnar: – Biri var idi, biri yox idi. Bir bağban var idi.

İlqar: – Onun bir oğlu, bir qızı var idi.

Aysel: – Bir gün bağbanın uşaqları ərik ağacı əkdilər.

Anar: – Qardaşlar hər gün ağacı sulayırdılar.

Gülnar: – Yaz gəldi, ağac çiçəklədi.

İlqar: – Birazdan uşaqların əkdiyi ağac bar verdi.

Aysel: – Bağban bunu görüb çox fərəhləndi.

Anar: – Uşaqlar yetişmiş armudları yeşiyə yığıb bazara apardılar.

Gülnar: – Meyvələri satdılar, pulunu gətirib atalarına verdilər...



**C** **Kim öz yoldaşlarını diqqətlə dinləmədi?**

**Faydalı məsləhət** DİNLƏMƏ BACARIĞI

**Başqalarının nitqini dinləyərkən:**

- Fikrimizi nitqin məzmununa yönəltməliyik.
- Danışanın sözünü kəsmək, diqqətini yayındırmaq olmaz.
- Dinlədiyimizi təsəvvürümüzdə canlandırmalıyıq.
- Anlamadığımız söz və ya fikirləri qeyd etməli, sonda soruşmalıyıq.

**Ç** **“Eşitmək və dinləmək” mətnini dinləyin.**

- **Açar sözlərə əsasən mətni nəql edin.**

  *qab-qacaq, cizgi filmi, yük maşını, futbol oyunu, pəncərə taxtaları*

- **Dinləmə bacarığı haqqında hansı tövsiyə mətndə öz əksini tapmışdır?**

LAYİHƏ

## Dil qaydaları

3 A **Verilmiş sözləri kök və şəkilçiyə ayırın. Şəkilçilərin düzgün yazılışını müəyyən edin.**

aktyorlar – aktyorrar
şokoladlı – şokoladdı
samanlıq – samannıq

• Bunları bilməliyik • **"L" SAMİTİ İLƏ BAŞLANAN ŞƏKİLÇİLƏR**

Bəzi sözlərdə "l" samiti ilə başlanan şəkilçilər fərqli səslənir. Bu cür şəkilçilərin yazılışına xüsusi diqqət etməliyik.

-lar, -lər

| Doğru | Yanlış |
|---|---|
| qazlar | qazdar |
| oğlanlar | oğlannar |
| narlar | narrar |

-lı, -li, -lu, -lü

| Doğru | Yanlış |
|---|---|
| duzlu | duzdu |
| şanlı | şannı |
| ətirli | ətirri |

-lıq, -lik, -luq, -lük

| Doğru | Yanlış |
|---|---|
| şadlıq | şaddıq |
| sərinlik | sərinnik |
| bazarlıq | bazarrıq |

B **İsimlərə çoxluq bildirən şəkilçilər artırıb yazın. Şəkilçilərin yazılışına diqqət edin.**
*qaz, gül, ilan, qardaş, həyat, şəhər*

C **Hansı sözlərdə "l" samiti ilə başlanan şəkilçinin deyilişi ilə yazılışı fərqlənmir?**
*ilanlar, şəhərli, güllük, kitablar, güclü, bulaqlar*

Ç **Cümlələrdə səhv yazılmış sözləri müəyyən edib düzgün yazın.**
1. Düşmən qoşunnarı geri çəkildi.
2. Aysu kədərri halda oturmuşdu.
3. Göyün üzünü bulutdar almışdı.
4. Bu yerrərin bərəkətdi torpağı var.
5. Qızdar çəmənnikdə gül yığırdılar.
6. Şəhərrərimiz bir-birindən gözəldir.

D **Mətni oxuyun. Səhv yazılmış sözlərə düzəliş etməklə mətni köçürün.**
*El bayramına yurdun hər yerindən ox atan, at oynadan igid cavannar, addı-sannı pəhləvannar axışıb gəlmişdilər. Onnarın şərəfinə ozannar qopuz çalıb söz qoşurdular. Uzunsaç, qaragöz qızdar, gəlinnər də bəzənib gəlmişdilər. Onnar da çəmənnikdə məclis düzəltmişdilər.*

LAYİHƏ

•fəsil• 4

# ÖZÜN DÜZƏLT

1 A **Hansı oyuncaqlarla oynamağı xoşlayırsınız? Nə üçün? Bəs özünüz oyuncaq düzəltmisinizmi?**

## ƏSRİN OYUNCAĞI

Dünyada məşhur olan leqo oyuncağı kiçikdən böyüyə hamıya tanışdır. Hər kəs çox maraqla leqo parçalarından fiqurlar düzəltməyi sevir.

Bəs ilk leqolar necə yaranmışdır?

Təxminən 100 il əvvəl uzaq Danimarka ölkəsində Olie Kristian adlı bir dülgər yaşayırdı. O öz kiçik emalatxanasında taxtadan mebel hazırlayıb satmaqla məşğul olurdu.

Olienin kiçik oğlu Qotfred tez-tez atasının emalatxanasına gəlirdi. O, maraqla mebel əşyalarının düzəldilməsinə baxırdı. Olie də həvəslə öz peşəsinin sirlərini oğluna öyrədirdi.

Mebelin istehsalı zamanı çoxlu kiçik taxta parçaları artıq qalır, zibilliyə atılırdı. Bir dəfə Olie oğlunun bu taxta parçaları ilə oynadığını gördü. Dülgər düşündü ki, itkiyə gedən taxta parçalarından oyuncaqlar hazırlayıb sata bilər. Beləliklə, danimarkalı dülgər taxtadan oyuncaqlar düzəltməyə başladı. Hətta bu oyuncaqlara ad da verdi: leqo*.



Qotfred on iki yaşından atasının yanında işləməyə başladı. O bu işə böyük maraq göstərirdi. Bir gün yeni bir fikirlə atasının yanına gəldi:

– Ata, gəl oyuncaqları hazır şəkildə deyil, hissələrə bölünmüş halda sataq. Qoy alıcılar özləri bu hissələrdən oyuncağı yığsınlar.

– Səncə, yığa bilərlər? – Olie tərəddüdlə dedi.

– Biz qutunun üzərinə şəkil və təlimat yapışdırarıq.

Olie, hətta emalatxana işçiləri Qotfredin fikrini bəyəndilər. Onlar rəngli, kiçik parçalardan ibarət oyuncaqlar hazırlamağa başladılar. Bu parçalar asanlıqla bir-birinə keçirilirdi.

*__leqo__ – *Danimarka dilində "leg-godt" – "yaxşı oyna" mənasını verir.*

LAYİHƏ

Oyuncaq parçaları dəstlər şəklində qutulara yığılır və mağazalara göndərilirdi. Uşaqlar bu parçalardan özləri ev, maşın, gəmi düzəldirdilər. Bu zaman uşaqların yaradıcı bacarıqları inkişaf edirdi.

Bir müddət sonra leqolar dünyada ən çox alınan oyuncağa çevrildi.



**•Söz boğçası•**

- emalatxana
- istehsal
- leqo
- itki
- dəst

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Olie Kristian hansı peşə ilə məşğul idi?
2. Olie nəyə görə oyuncaq düzəltməyə başladı?
3. Qotfredin hansı fikri hamı tərəfindən bəyənildi?
4. “Leqo” sözünün mənası nədir?

**C** **Söz boğçasındakı sözləri verilmiş izahlarla uyğunlaşdırın.**

1. Ziyan, zərər
2. Hər hansı bir şey hazırlama
3. Müəyyən məqsəd üçün lazım olan əşyaların toplusu
4. İstehsal müəssisəsinin binası

## Düşün və cavab ver

**Ç** **Leqonun digər oyuncaqlardan fərqi nədir?**

## Təqdimat

**D** **Cədvəldən istifadə etməklə leqo haqqında məlumat vərəqi hazırlayın.**

| | |
|---|---|
| *İxtiranın adı* | |
| *İxtiranın mahiyyəti* | |
| *İxtiraçı* | |
| *İxtira olunduğu ölkə* | |
| *Əlavə məlumatlar* | |

LAYİHƏ

## 2 A “Sehrli kub” mətnini oxuyun və qeydlər götürün.

### SEHRLİ KUB

Rubik kubu çox maraqlı zəka oyunlarından biridir. Onun hər üzündə 9 kiçik kub var. Rubik kubunun üzlərinin hərəsi bir rəngdə olur. Onları fırlatmaqla kiçik kubların yerini dəyişmək – bir üzdən o birinə aparmaq olur. Bu zaman kubun üzündəki rənglər qarışır.

Oyunçu kubu elə yığmalıdır ki, hər üz bir rəngdə olsun.

Bu gün Rubik kubunu sürətlə yığmaq üzrə beynəlxalq yarışlar keçirilir.

1


2


3


## B Mətndən şəkillərə uyğun gələn cümlələri seçin.

**Faydalı məsləhət** YADDAŞ XƏRİTƏSİ

Təqdimata hazırlaşarkən qeydlərimizi müəyyən başlıqlar altında qruplaşdıra bilərik. Bu cür qruplaşdırma **yaddaş xəritəsi** adlanır.

## C Mətndən götürdüyünüz qeydlər və verilmiş yaddaş xəritəsi əsasında Rubik kubu haqqında danışın.

RUBİK KUBUNUN İXTİRASI

İXTİRAÇI:
- Erno Rubik
- macar
- heykəltəraş

ZAMAN VƏ MƏKAN:
- 1974-cü il
- Budapeşt

**Oyuncağın təsviri**
- Rənglər: ağ, sarı, göy, yaşıl, qırmızı, narıncı
- 6 üz
- 9 kvadrat

## Ç “Teddi ayı” mətnini dinləyin və qeydlər götürün.

LAYİHƏ

# Dil qaydaları

3 A **Cümlələrdəki sayları müəyyən edin.**

1. Rubik kubunun hər üzü doqquz eynirəngli kvadratdan ibarətdir.
2. Hər il Rubik kubu üzrə yarışmaya xeyli adam qoşulur.
3. Rubik kubu 1974-cü ildə ixtira edilmişdir.

**• Bunları bilməliyik • SAY**

**Say** – varlığın miqdarını və ya sırasını bildirir.

| *Miqdar sayı* | *Sıra sayı* |
|---|---|
| bir, iyirmi, çox, bir-iki | beşinci, onuncu, yüzüncü |
| **Neçə? Nə qədər?** | **Neçənci?** |

B **Sayları cədvəl üzrə qruplaşdırıb yazın.**

*bir, az, xeyli, yüzüncü, çoxlu, yeddinci, min, yüzlərlə, beş, yüz, üçüncü, üç-dörd*

| Miqdar sayı | Sıra sayı |
|---|---|
| | |

C **Miqdar saylarına *-ıncı*[4] şəkilçisini artırmaqla sıra sayları düzəldin.**

*bir, üç, altı, doqquz, yüz, min, on səkkiz, otuz, yetmiş səkkiz*

Ç **Hansı söz birləşmələrində say varlığın dəqiq miqdarını bildirir?**

*çoxlu ağac, üç yüz şagird, yeddi kitab, yüzlərlə insan, üç-dörd sinif, minlərlə əsgər, səksən səkkiz məktəb, bir-iki kəlmə*

**• Diqqət et •**

Bəzi miqdar sayları əşyanın təxmini miqdarını bildirir. Məsələn: *çox, onlarla, saysız-hesabsız.*

D **Cümlələrdəki təxmini sayları seçib yazın.**

1. Beş-altı nəfər bir yerə toplaşıb söhbət edirdi.
2. Az adam az iş görər, çox adam çox iş.
3. Beşinci gün kitabxanaya xeyli kitab gətirdilər.
4. Vətənimizdə yüzlərlə meyvə növü yetişir.

LAYİHƏ

# RƏQƏMLƏRİN TARİXİ

**1 A** **Sizcə, rəqəmlər olmayanda insanlar əşyaları necə sayırdılar? Bəs sayı yazıda necə işarə edirdilər?**

## RƏQƏMLƏRİN YARANMASI

*Qədim zamanlarda insanların saylar haqqında sadə təsəvvürü var idi. Onlar bilirdilər ki, insan qollarının sayı quş qanadlarının sayı qədərdir, ayaqlarının sayı isə maralın ayaqlarının sayından azdır. Lakin bu sayları yazıda ifadə edə bilmirdilər.*

### 1. İlk rəqəmlər necə yarandı?

Qədim insan sürüdəki keçilərin sayını bilmək üçün bir qab götürüb ora kiçik daşlar yığırdı: bir keçi – bir daş. Qabda daşların sayı çoxdursa, deməli, sürü də böyükdür. Bəzən sayı ifadə etmək üçün əşyanın sayı qədər taxtada cızıqlar çəkir, bəzən isə uzun kəndirdə əşyanın sayı qədər düyünlər salırdılar. Zaman keçdikcə daha böyük və dəqiq hesablamalara ehtiyac yarandı. Artıq hər bir sayı işarələrlə ifadə etmək lazım idi. Rəqəmlərə – sayın yazıda işarəsinə ehtiyac var idi.

İlk rəqəmlər qədim Misir ölkəsində yaranmışdır. Misirlilər kiçik ədədləri cızıqlarla, böyük ədədləri şəkillərlə ifadə edirdilər. Bəzi xalqlar isə öz əlifbalarındakı hərflərdən istifadə edirdilər. Hərfin rəqəm olduğunu bildirmək üçün üstündə xətt çəkirdilər.

### 2. Niyə məhz onluq say sistemi?

Hesablama aparmaq üçün asan bir say sistemi düşünmək lazım idi. Bunu başa düşən insanlar onluq say sistemi yaratdılar.

**• Bu, maraqlıdır.**

Qədimdə bəzi xalqlar hesablama zamanı yalnız “bir” və “iki” rəqəmindən istifadə edirdilər. Məsələn, 3 ədədinə “iki-bir”, 4-ə “iki-iki”, 5-dən böyük ədədlərə isə, sadəcə, “çox” deyirdilər.

*Qədim Misir rəqəmləri*




*Qədim rus rəqəmləri*




LAYİHƏ

Heç fikir vermisinizmi, on dənə təklik bir onluq, on dənə onluq bir yüzlük, on dənə yüzlük bir minlik yaradır. Buna onluq say sistemi deyirlər. Bu say sisteminin yaranması insanın əllərindəki barmaqların sayı ilə bağlı idi.

Çoxlu sayda əşyanı saymaq üçün bəzən bir neçə adam lazım gəlirdi. Birinci adam əllərinin barmaqlarını bir-bir açmaqla təklikləri sayırdı. On barmağı açılıb qurtardıqdan sonra bu adam əlini yumurdu, ikinci adam bir barmağını açırdı. Onun hər barmağı bir onluq demək idi. İkinci adamın barmaqlarının onu da açıldıqda məlum olurdu ki, sayılan əşyaların miqdarı on onluğa, yəni yüzə çatıb. Bu zaman üçüncü adam bir barmağını açıb yüzlüyü göstərirdi.

Beləliklə, onluq say sistemi yarandı.

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Qədimdə insanlar sayları necə ifadə edirdilər?
2. Misirlilər böyük və kiçik ədədləri necə yazırdılar?
3. Ruslar rəqəmləri hərflərdən necə fərqləndirirdilər?

## Düşün və cavab ver

**C** **Şəkillərə baxaraq qədim Misir rəqəmləri ilə 114 ədədini yazın.**

**Ç** **Əgər sayma qurtardıqda birinci adamın yeddi barmağı, ikinci adamın beş barmağı, üçüncü adamın iki barmağı açılmışsa, onda sayılan şeylərin miqdarı nə qədərdir?**



LAYİHƏ

**2A** **Verilmiş sxemi nümunələrlə şərh edin.**

hərf → söz        rəqəm → ədəd

### 3. Ərəb, yoxsa hind rəqəmləri?

Bizim istifadə etdiyimiz rəqəmlər ərəb rəqəmləri adlanır. Bu rəqəmlərin köməyi ilə istənilən ədədi rahat ifadə etmək olur. Bu zaman cəmi on rəqəmdən istifadə edilir:

**0, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9.**

Ədədlərin bu cür yazılışı Hindistanda icad edilmişdir. Ərəblər bu işarə sistemini hindlilərdən, başqa xalqlar isə ərəblərdən öyrəniblər. Ona görə də "ərəb rəqəmləri" adlanır. Ərəb rəqəmlərinin geniş yayılmasında məşhur riyaziyyatçı Xarəzminin böyük rolu olmuşdur.



Əl-Xarəzmi
(783-850)

### 4. Roma və ərəb rəqəmləri

Ərəb rəqəmləri ilə tanış olana qədər avropalılar Roma rəqəmlərindən istifadə edirdilər. Qədim romalıların icad etdiyi rəqəmlər Misir rəqəmlərinə bənzəyirdi. Lakin daha mükəmməl idi. Burada kiçik ədədləri cızıqla, beş, on, əlli, yüz və s. ədədləri isə xüsusi işarələrlə ifadə edirdilər:

üç – III, yeddi – VII, on – X, əlli – L, yüz – C

Roma rəqəmləri ərəb rəqəmlərindən min il əvvəl icad edilmişdi. Lakin Roma rəqəmləri ilə yazılan bir çox ədədlərin mürəkkəb tərkibi olur.

Məsələn, "yetmiş səkkiz" ədədinin Roma və ərəb rəqəmləri ilə yazılışını müqayisə edək:

**Yetmiş səkkiz ədədi**

**Roma rəqəmləri ilə:** LXXVIII *(yeddi rəqəm)*
**Ərəb rəqəmləri ilə:** 78 *(iki rəqəm)*

Beləliklə, böyük ədədləri Roma rəqəmləri ilə ifadə etmək çətinlik yaradırdı. Ona görə də ərəb rəqəmlərindən daha geniş istifadə etməyə başladılar. Bu gün Roma rəqəmlərindən sıra saylarını ifadə etmək üçün istifadə olunur.

LAYİHƏ

## Nə anladın?

**B** **Mətnə əsasən doğru fikirləri müəyyən edin.**

1. Ərəb rəqəmlərində ədədləri ifadə etmək üçün 0-dan 9-a qədər rəqəmlərdən istifadə olunur.
2. Xarəzmi ərəb rəqəmlərini icad etmişdir.
3. Ərəb rəqəmləri Hindistanda yaranmışdır.
4. Xarəzmi ərəb rəqəmlərinin başqa xalqlar arasında da yayılmasına nail olmuşdur.
5. Misirdə olduğu kimi Romada da böyük ədədləri şəkillərlə ifadə edirdilər.

## Düşün və cavab ver

**C** **Sıra saylarını Roma rəqəmləri ilə yazın.**

4-cü, 6-cı, 13-cü, 16-cı, 18-ci, 20-ci

**Ç** **Roma rəqəmləri ilə verilmiş ədədləri sözlə və ərəb rəqəmləri ilə ifadə edib yazın.**

XXII, XV, XXX, XVII

**D** **Cümlələrdəki sayları sözlə ifadə edib köçürün. Hansı sayın ifadəsində daha çox sözün olduğunu müəyyən edin.**

1. Növbədə 304-cü sırada dayanmışdım.
2. Mirzə Fətəli Axundov XIX əsrdə yaşamışdır.
3. Dərslikdəki 22-ci tapşırıq çətin idi.
4. Məktəbin kitabxanasına 415 kitab gətirildi.

**E** **"İki yüz iyirmi iki" sayının rəqəmlə ifadəsi haqqında deyilənlərdən hansı doğrudur?**

A) Dörd rəqəmdən istifadə olunur.
B) Üç eyni rəqəmdən istifadə olunur.
C) Üç fərqli rəqəmdən istifadə olunur.

LAYİHƏ

## Dil qaydaları

3 A **Cümlələrdəki sayları müəyyən edin və yazılış formalarını müqayisə edin.**

1. Rubik kubunun hər üzündə 9 kiçik kub var.
2. Leqo XXI əsrin ən məşhur oyuncağıdır.
3. Sinfimizdə otuz şagird var.

• Bunları bilməliyik • SAYIN YAZILIŞ FORMALARI

Sayların müxtəlif yazılış formaları vardır:

1. **Sözlə**: beş, iyirmi.
2. **Ərəb rəqəmləri ilə**: 14, 517.
3. **Ərəb rəqəmləri və sözlə**: 3 min, 5 min.
4. **Roma rəqəmləri ilə**: V, XVI.

B **Verilmiş sayları sözlə ifadə edib yazın.**

87, 10-cu, 356, 5-ci, 105, 100-cü

C **Sözlə verilmiş sayları ərəb rəqəmləri ilə yazın.**

doqquzuncu, iki yüz qırx beş, dörd yüz qırx dörd, beş yüz bir

Ç **Sualların cavabını rəqəmlə ifadə edib yazın.**

1. Bir dəqiqə neçə saniyədir?
2. Bir gün neçə saatdır?
3. Bir həftə neçə gündür?
4. Çərşənbə axşamı həftənin neçənci günüdür?

• Yadda saxla •

Sıra saylarını Roma rəqəmləri ilə yazarkən şəkilçi işlədilmir.

| *Sıra sayı* | *Ərəb rəqəmləri ilə* | *Roma rəqəmləri ilə* |
|---|---|---|
| on ikinci | 12-ci | XII |

D **Cümlələrdəki sıra saylarını Roma rəqəmləri ilə ifadə edib köçürün.**

1. Arzu altıncı sinifdə oxuyur.
2. İngiltərə kraliçası İkinci Elizabet atları sevir.
3. Kitabın dördüncü fəslini də oxuyub bitirdim.
4. Biz iyirmi birinci əsrdə yaşayırıq.

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**A** **Mətni oxuyun. Səhv yazılmış sözlərə düzəliş etməklə mətni köçürün.**

*Qarrı-şaxdalı qış gəlmişdi. Qışın öz gözəlliyləri var: dağlar, təpələr, düzdər pambığ kimi ağ qarla örtülmüşdü. Ağacdarın budaxları qara bürünmüşdü. Arabir buluddarın arasından günəşin ilığ şüaları gözdəri qamaşdırırdı.*

**B** **Mötərizədə verilmiş sözləri uyğun şəkildə dəyişərək cümlələri köçürün.**

1. Ağacın (budaq) qurumuşdu.
2. Kənan ona edilən (kömək) heç vaxt unutmayacaq.
3. (Üfüq) yelkənli gəmi görünürdü.
4. Nənənin bişirdiyi (çörək) ətri hər yana yayıldı.
5. Arzunun yarışda (iştirak) bizi qürurlandırdı.
6. Uşaqlar (çiyələk) çox sevirlər.

**C** **Hansı sayları rəqəmlə ifadə etmək olmur? Nə üçün?**

*üç, çoxlu, yetmiş, bir az, doqquzuncu, yüz, yeddinci, xeyli*

**Ç** **Sayları cədvəl üzrə qruplaşdırın.**

*yeddi-səkkiz, onlarla, on birinci, minlərlə, yüz, qırxıncı, əlli, doqquzuncu, az-çox*

**Varlığın dəqiq sayını bildirir:**
**Varlığın təxmini sayını bildirir:**
**Varlığın sırasını bildirir:**

**D** **Nöqtələrin yerinə uyğun gələn sayları müəyyən edin.**

*yeddi, xeyli, altı, otuz, üç, minlərlə, doqquz*

1. Dünyada ... materik var.
2. Bir saatın yarısı ... dəqiqədir.
3. Göyqurşağının ... rəngi var.
4. ... noyabr vətənimizdə Bayraq Günü qeyd edilir.
5. Bayram tədbirinə ... adam gəlmişdi.
6. Bir fəsildə ... ay var.
7. ... əsgər vətən uğrunda mübarizə aparırdı.

LAYİHƏ

# 6 UNUDULMAZ QƏHRƏMANLAR

**A** **Sizcə, hansı hərəkətlər qəhrəmanlıq sayılır? Qəhrəmanların hansı xüsusiyyətləri olur? Oxuduğunuz mətnlərdən nümunələr gətirməklə qəhrəmanlıq haqqında danışın.**

**B** **Qruplarla iş**

**Məlumat vərəqindən istifadə etməklə qəhrəmanlar haqqında təqdimat hazırlayın.**

**I qrup**

## CAVAD XAN


Azərbaycan, Gəncə

**Kimliyi** – Gəncə xanı
**Yaşadığı illər** – 1748-1804
**Hökmranlıq illəri** – 1786-1804
**Əsas xidməti** – Gəncə uğrunda işğalçı rus qoşunlarına qarşı mübarizə aparmışdır.
**Əlavə məlumatlar:**
1. Cavad xanın oğlu Hüseynqulu da atası ilə birlikdə döyüşlərdə iştirak etmiş və qəhrəmancasına həlak olmuşdur.
2. Gəncədə Cavad xanın qəbri üzərində məqbərə tikilib.

**II qrup**

## KOROĞLU


Azərbaycan

**Kimliyi** – xalq qəhrəmanı
**Yaşadığı dövr** – 16-cı əsrin sonu – 17-ci əsrin əvvəli
**Əsas xidməti** – zülmkar ağalara qarşı mübarizə
**Məskəni** – Çənlibel qalası
**Atının adı** – Qırat
**Qılıncının adı** – Misri
**Əlavə məlumatlar:**
1. Koroğlunun qoşununda yeddi min yeddi yüz yetmiş yeddi igid var idi.
2. Koroğlunun döyüşlərdə göstərdiyi şücaətlər "Koroğlu" dastanında təsvir edilir.

LAYİHƏ

**III qrup**

## RAQUF ORUCOV





Azərbaycan

**Kimliyi** – kəşfiyyatçı, polkovnik-leytenant
**Yaşadığı illər** – 1972-2016
**Əsas xidməti** – Qarabağda erməni işğalçılarına qarşı mübarizədə göstərdiyi igidliklər
**Əlavə məlumatlar:**
1. Murovdağda göstərdiyi qəhrəmanlığa görə “Murov qartalı” deyə çağırırdılar.
2. Başçılıq etdiyi kəşfiyyat qrupu əsgərlərimizi əsirlikdən xilas etmişdi.
3. 2016-cı ildə Aprel döyüşləri zamanı şəhid olmuşdur.
4. Ölümündən sonra “İgidliyə görə” medalı ilə təltif edilmişdir.

**IV qrup**

## SALATIN ƏSGƏROVA





Azərbaycan

**Kimliyi** – jurnalist
**Yaşadığı illər** – 1961-1991
**Əsas xidməti** – Qarabağ müharibəsində jurnalistlik fəaliyyəti
**Əlavə məlumatlar:**
1. 1991-ci il yanvarın 9-da müsahibə hazırlamaq üçün Şuşaya gedərkən şəhid olub.
2. Şəhid olduğu Qaladərəsi kəndi onun şərəfinə Salatınkənd adlanır.
3. Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

**Söz boğçası**

• hökmranlıq • xidmət • məqbərə • zülmkar • şücaət • əsirlik • təltif etmək • məğlub etmək • kəşfiyyatçı •

**C** **Atalar sözlərini məlumat vərəqlərindəki bilgilərlə əlaqələndirib izah edin.**

1. İgid oğul düşmənə əyilməz.

2. Aslanın erkəyi, dişisi olmaz.

3. Şəhidlər ölməz, Vətən bölünməz.

LAYİHƏ

•fəsil• 1

# HÜNƏR GÖSTƏR, AD QAZAN

**1A Oğuz eli, Dədə Qorqud haqqında bildiklərinizi danışın.**

## QARACA ÇOBAN

Dəmirqapı Dərbənddə qoldan qüvvətli bir çoban var idi. O, Oğuz igidi Salur Qazanın qoyunlarını otarırdı.

Günlərin bir günü Salur Qazan başının dəstəsi ilə ova getmişdi. Düşmən bundan xəbər tutub Oğuz elinə hücum çəkdi. Qazan xanın evini yağmaladı, xəzinəsini taladı, anasını, xanımını əsir apardı. Düşmənin gözü bununla doymadı. Dedilər: “Gedək Qazan ın qoyun sürülərini də ələ keçirək”.

Qaraca çoban dağın başında yapıncısını yerə sərib yatmışdı. Gecəyarısı pis yuxu gördü. Yerindən dik atıldı. Üç yerdə təpə boyda daş yığdı. Sapandını əlinə aldı, oturub gözlədi. Bir də gördü, budur, altı yüz düşmən atlısı onun üstünə gəlir. Düşmənlərin başçısı dedi:

– Çoban, Salur Qazanın evini yağmaladıq, var-dövlətini ələ keçirdik. İndi də qoyunlarını aparmağa gəlmişik. Ya dinməz-söyləməz ver, ya da zorla alacağıq.

Qaraca çoban qəzəblə nərə çəkdi:

– Səndən qorxsam, səndən betər olum. Hünərin var, yaxın gəl.

Düşmənlər atlarını çobanın üstünə sürdülər. Hər tərəfdən ox yağdırmağa başladılar. Çoban sapandına daş qoyub atdı. Birini atanda iki atlını yerə sərdi. Axırda daş qurtardı. Qoyun-keçi demədi, onları düşmənin başına əldi.

**Söz boğçası**

- yağmalamaq
- talamaq
- yapıncı
- öymək
- sayıqlıq
- handan-hana



Düşmənin gözü qorxdu, dedilər:

– Bu çoban bizim axırımıza çıxacaq! Gəlin qaçaq!

Handan-hana Salur Qazan yetişdi. Düzdə sərilib qalmış düşmənlərə baxdı. Üzünü Qaraca çobana tutub dedi:

– Çoban, de görüm, Oğuz elini kim bu günə qoydu?

Çoban olub-keçənləri danışdı. Qazan xan əsdi, gurladı. Atının ağzını düşmən ölkəsinə çevirdi. Bir də baxdı ki, çoban da arxasınca gəlir. Soruşdu:

– Çoban, sən hara?

– Oğuz elinin qisası mənim də qisasımdır.

Qaraca çobanın bu sədaqətindən Qazan xanın ürəyi dağa döndü. Bir yandan da fikirləşdi ki, çobanla getsə, düşmən onu qorxaq bilər. Atdan endi.



Çobanı nəhəng bir ağaca möhkəm sarıyıb yola düzəldi. Amma çoban inadından dönmədi. Ağaca bir güc verdi, iki güc verdi, üçüncüdə kökündən qoparıb belinə aldı, Qazan xanın arxasınca yola düzəldi.

Qazan xan çobanın əllərini açdı, alnından öpüb dedi:

– Sədaqətinə görə var ol, Qaraca çoban!

Birlikdə yola düzəlib düşmən elinə çatdılar. Qazan xan bir yandan, Qaraca çoban o biri yandan düşmən qoşununu şil-küt elədilər. Oğuz eli xilas oldu.

Dədə Qorqud çobanın igidliyini, el-obasına sədaqətini öydü.

## Nə anladın?

**B** **Mətnə və şəklə əsasən “sapand” sözünün mənasını izah edin.**

**C** **Mətnlə bağlı suallara cavab verin.**

1. Salur Qazan kim idi?
2. Düşmənlər hansı məqamdan istifadə edib Oğuz elinə hücum çəkdilər?
3. Nə üçün Qazan xan düşmən üzərinə çobanla getmək istəmədi?

LAYİHƏ

## Düşün və cavab ver

**Ç** **Mətndə hansı epizodlar Qaraca çobana aid aşağıdakı xüsusiyyətləri əks etdirir?**

*1. sədaqətli* *2. ayıq-sayıq* *3. güclü-qüvvətli*

- **Verilmiş atalar sözlərini seçdiyiniz epizodlarla uyğunlaşdırın.**

1. İgid oğul düşmənə əyilməz.
2. Ehtiyat igidin yaraşığıdır.

**2 A** **“Qarabağ” sözünün izahını oxuyun. Bu izaha əsasən çobanın adının mənasını təxmin edin.**

*“Qarabağ”ın adı Azərbaycan dilindəki “qara” və “bağ” sözlərindən əmələ gəlmişdir. Türk dillərində “qara” sözünün rəngdən başqa “böyük”, “əzəmətli” mənaları da vardır. Bu baxımdan “Qarabağ” böyük bağ mənası verir.*

**• Yadda saxla • QƏHRƏMANLIQ DASTANI**

Dastan irihəcmli əsərdir. Qəhrəmanlıq dastanlarında xalqın azadlığı uğrunda mübarizə aparan mərd və igid insanlardan danışılır. “Kitabi-Dədə Qorqud” və “Koroğlu” ən məşhur qəhrəmanlıq dastanlarıdır.

**B** **Müəllimin oxuduğu “Dirsə xan oğlu Buğac” mətninin giriş və əsas hissəsini dinləyin. Şəkillərə əsasən mətnin sonluğunu yazın.**



**C** **“Dirsə xan oğlu Buğac” dinləmə mətni üzrə hekayə xəritəsi tərtib edin.**

Layihə

## Dil qaydaları

**3 A Sözləri aşağıdakı cədvəl üzrə qruplaşdırın.**
**Hansı sözlər cədvəlin heç bir sütununa uyğun gəlmir?**

*vətən, birinci, bəh-bəh, çoban, amma, yeddi, vuruşdular, cəsarətli, üç, və, dastan, çoxlu, qılınc, axı, uf, baxmaq, gözəl, qoşun, çünki, qorudu*

| ad | əlamət | say | hərəkət |
|---|---|---|---|
| | | | |

• Bunları bilməliyik • **KÖMƏKÇİ SÖZLƏR**

Elə sözlər var ki, anlayış ifadə etmir və heç bir suala cavab vermir. Belə sözlər **köməkçi sözlər** adlanır.

Məsələn:
- *Hüseyn **və** İbrahim eyni sinifdə oxuyur.*
- ***Ura**, qələbə bizimdir!*
- ***Bəs** sən gəlmirsən?*

**B Cümlələri oxuyun. Köməkçi sözləri seçib yazın.**

1. Uf, ayağım ağrıyır!
2. Dərslər bitdi və tətil başlandı.
3. Səlim tez yatdı, çünki yorulmuşdu.
4. Axı mən səni çoxdan gözləyirəm.

**C Köməkçi sözləri artırmaqla cümlələri tamamlayın.**

*və* *kaş* *bəh-bəh*

1. ... mən də sənin kimi pianoda çala biləydim.
2. Yaşar, Gülnar ... Vasif bir binada yaşayırlar.
3. ..., gülün nə gözəl ətri var!

**Ç Nöqtələrin yerinə uyğun gələn köməkçi sözlər artırın.**

1. Azərbaycan qəhrəman oğulları ... fəxr edir.
2. ..., kolluqdakı ilana bax!
3. Dünən hava tutulmuşdu, ... yağış yağmırdı.

**D Verilmiş sözləri uyğun sıralara əlavə edin.**

*ordu, amma, mübarizə, vay, daha, sərkərdə, ki*

| a) ana, cəsur, ... | b) və, üçün, ... |
|---|---|

LAYİHƏ

# EL İGİDLƏRİ İLƏ TANINAR

1 A **"Kitabi-Dədə Qorqud" dastanından hansı Oğuz qəhrəmanlarını tanıyırsınız? Onların qəhrəmanlıqları haqqında danışın.**

## SƏKRƏYİN DASTANI

Oğuz elində Uşun Qoca adlı bir kişinin iki oğlu var idi. Böyüyünün adı Əkrək idi. Bir dəfə Əkrək uzaq səfərdən vətənə qayıdırdı. Çox yorğun idi. Bir çəməndə uzandı ki, yatıb dincini alsın. Bu vaxt düşmənlər ona hücum etdilər. Yatdığı yerdə əl-qolunu bağlayıb əsir götürdülər. Oğuz elinə xəbər gəldi ki, Əkrək Əlincə qalasında dustaqdır. Uşun Qocanın evi yasa batdı.

İllər keçdi. Oğuz elinə bahar gəlmişdi. İgidlər ox atır, at çapırdılar. Uşun Qocanın kiçik oğlu Səkrək də böyüyüb yaxşı bir bahadır olmuşdu. Yarışların birində qalib gəldiyi rəqibi ona dedi:



– Səkrək, çox da öyünmə. Neçə illərdir ki, qardaşın Əkrək Əlincə qalasında dustaqdır. Əgər hünərin varsa, get onu qurtar.

Səkrək tez anasının yanına gedib qardaşını xəbər aldı. Anası dedi:

– Oğul, uşaq idin, ona görə sənə demədik. Qorxduq ki, gedəsən, başına bir iş gələ. Bir dərdimiz dönüb iki ola.

Elə həmin gün Səkrək ata-anasından izin alıb qardaşı Əkrəyi soraqlamaq üçün yola çıxdı. Oğuz elinin ağsaqqalı Dədə Qorqud ona xeyir-dua verdi:

– İgid oğul qardaşının sorağında olar. Onu əsirlikdən sən qurtarmasan, kim qurtarar?! Qaracıq atına min, get qardaşını qurtar. Al bu qopuzu da, sənə yoldaş olsun!

**•Söz boğçası•**
- əsir
- dustaq
- bahadır
- yasa batmaq

## Nə anladın?

B **"Söz boğçası"ndakı sözlərin izahını müəyyən edin.**

1. Müharibədə düşmən əlinə keçən əsgər, zabit və s.
2. Qəhrəman, igid
3. Həbs olunmuş adam

LAYİHƏ

**C** **Mətnin məzmunu ilə bağlı sualları cavablandırın.**
1. Necə oldu ki, Əkrək düşmənə əsir düşdü?
2. Səkrək qardaşının dustaq olması xəbərini kimdən eşitdi?
3. Dədə Qorqud Səkrəyə nə dedi? Ona nə verdi?

## Düşün və cavab ver

**Ç** **Mətnin sonuncu abzasını bir daha oxuyun. Bildiyiniz alqışları yadınıza salın. Dədə Qorqud Səkrəyi yola salarkən hansı alqışları söyləyə bilərdi?**

**D** **Qopuz aləti haqqında araşdırma aparın.**

**2 A** **Sizcə, nə üçün Dədə Qorqud Səkrəyə qopuz verdi?**

Səkrək qopuzunu götürdü. Qaracıq atına minib yola düzəldi. Üç gün, üç gecə at çapdı. Nəhayət, qardaşının əsir düşdüyü məmləkətə yetişdi.

Qonşu ölkədə xəbər yayıldı ki, Oğuz elindən bir bahadır gəlib. Qoşunun canına vəlvələ düşdü. Xəbər hökmdara çatdı. O, qəzəblə dedi:

– Bir bahadır mənim qoşunuma nə edə bilər ki?

Qoşun başçısı dilləndi:

– Hökmdarım, bu igid Oğuz elindəndir. Onunla bacarsa, bircə əlimizdə əsir olan Əkrək bacarar.

Əkrəyin əlini-qolunu açıb döyüş paltarı geyindirdilər. 300 döyüşçü ilə birlikdə Səkrəyin üstünə göndərdilər.

Səkrək uzun yol gəldiyindən yorulub bir ağacın altında yuxuya getmişdi. Əkrək atdan düşüb Səkrəyə yaxınlaşdı. Diqqətlə onu süzməyə başladı. Sanki igidin kim olduğunu öyrənməyə çalışırdı. Birdən gözü onun yanındakı qopuza sataşdı. El-obası yadına düşdü. Qəhərləndi, qopuzu əlinə aldı, dərdli-dərdli çalıb-oxudu:

*Qalx, Oğuz elindən gələn igid.*
*Dörd yanını yağı alıb, oyan, igid.*

Əkrəyin səsinə Səkrək yuxudan oyandı. Əkrək ondan soruşdu:

– Kimsən, igid? Burada nə işin var?

LAYİHƏ

Səkrək qopuzu ondan alıb söylədi:

*Uşun Qoca oğlu Səkrəyəm, Səkrək.*
*Dustaq qardaşımsa Əkrəkdir, Əkrək.*

Əkrək qardaşını tanıyıb onu qucaqladı. Qardaşlar birləşib düşmənləri qırıb-çatdılar, qovub qalaya saldılar. Yenidən Oğuz elinə döndülər. Uşun Qocanın qapısına çapar gəldi:

– Gözün aydın olsun! Oğullarının ikisi də sağ-salamat gəldi!

Uşun Qoca eşidib şad oldu. Dağın başında tonqal qalandı. Şənlik quruldu, təbillər çalındı. Elin ağsaqqalı Dədə Qorqud gəldi, igidlərə xeyir-dua verdi.

*"Kitabi-Dədə Qorqud" dastanı əsasında işlənmişdir.*



## Nə anladın?

**B Cümlələri tamamlayın.**

1. Düşmən ölkənin hökmdarı qəzəblənmişdi, çünki ...
2. Düşmənlər Səkrəyin qarşısına Əkrəyi çıxardılar, çünki ...
3. Əkrək qəhərləndi, çünki ...
4. Oğuz eli bayram edirdi, çünki ...

## Düşün və cavab ver

**C Sizcə, aşağıdakı şeir hansı obraza aiddir? Mətndən həmin şeirə uyğun epizodu seçin.**

*Ağ saçın üçün ölüm, qardaş.*
*Dilin üçün ölüm, qardaş.*
*Ərmi oldun, igidmi oldun, qardaş?*
*Mənim sorağıma sənmi gəldin, qardaş?*

## Təqdimat

**Ç Qopuz haqqında topladığınız məlumatları təqdim edin.**

LAYİHƏ

## Dil qaydaları

3 A **Hansı bənddə verilmiş söz sırasında bitmiş fikir ifadə olunub?**

A) El ağsaqqalı
B) Əkrək və Səkrək
C) Xeyir-dua vermək
Ç) Dədə Qorqud igidlərə xeyir-dua verdi.

• Bunları bilməliyik • MÜRƏKKƏB CÜMLƏ

Cümlə bitmiş fikri ifadə edir. Bəzi cümlələrdə bir deyil, bir neçə fikir ifadə oluna bilər. Belə cümlələr **mürəkkəb cümlə** adlanır.

Şənlik quruldu, təbillər çalındı.

B **Mürəkkəb cümlələri seçib yazın.**

1. Yaz gəldi, bağçada güllər açdı.
2. Məktəbdə hamı tədbirə hazırlaşırdı.
3. Anar bərkdən çağırır, lakin Sahib eşitmirdi.
4. Müəllim izah edir, şagirdlər diqqətlə dinləyirdilər.
5. Sevinc, Kamran və Sahibə məktəbə tələsirdilər.
6. Mən meyvələrdən almanı, heyvanı və narı çox sevirəm.

C **Uyğunluğu müəyyən edərək mürəkkəb cümlə düzəldin.**

| | |
|---|---|
| 1. Qar yağdı. | a) Hamı ayağa qalxdı. |
| 2. Azərbaycan himni səsləndi. | b) Şəhər ağ örpəyə büründü. |
| 3. Bilməmək eyib deyil. | c) Polis onu saxladı. |
| 4. Sürücü qaydaları pozdu. | ç) Soruşmamaq eyibdir. |

Ç **Verilmiş fikirlərə daha bir fikir əlavə edərək mürəkkəb cümlə düzəldin.**

1. Külək əsir, ...
2. Müəllim sual verir, ...
3. İşıqforun yaşıl işığı yandı, ...
4. Nihadın yeddi yaşı oldu, ...
5. Mina dərslərini bitirdi, ...

LAYİHƏ

•fəsil• 3

# İGİD DÖYÜŞDƏ BƏLLİ OLAR

**1 A "İgid döyüşdə məlum olar" atalar sözünü izah edin.**

## AĞ ATLI OĞLAN

Biri var idi, biri yox idi, Daşgüvar adlı zalım şah var idi. Şahın Xanbala və Bəybala adlı güclü-qüvvətli oğlanları var idi. Padşah da onlara baxıb "mənim bəy balam", "mənim xan balam" deyə sevib-oxşayardı.

Padşahın bir mehtəri var idi. Oğlu Nərbala ilə birlikdə şahın atlarını bəsləyirdi. Bir gün Xanbala ilxıdan şahzadəyə yaraşan bir at seçmək istədi. Mehtər boz rəngli bir qulunu göstərib dedi:

– Bircə il bu quluna yaxşı qulluq olunsa, cıdırda ona çatan at olmaz.

– Bu yabını oğlun Nərbalaya saxla, – deyə Xanbala başqa at seçdi.

O gündən Nərbala boz quluna xüsusi qulluq etməyə başladı. Aylar keçdi, boz, çəlimsiz qulun ağappaq köhlən ata çevrildi.

Mehtər Xanbala və Bəybalanın xasiyyətinə yaxşı bələd idi. Onlar hamıya yuxarıdan aşağı baxar, başqalarının uğurunu gözləri götürməzdi. Mehtər oğluna tapşırmışdı ki, atı yalnız gecələr xəlvətcə şəhər qırağında sürsün. Yoxsa şahzadələr görsələr, paxıllıqdan onu cəzalandırarlar. Kim inanardı ki, bu gözəllikdə at həmin boz qulundur...

***

Bir gün qonşu ölkənin hökmdarı Səlim şah hücum çəkib şəhərin yaxınlığında düşərgə qurdu. Daşgüvar şaha xəbər göndərdi ki, pəhləvan yarışı keçirsinlər. Kimin pəhləvanı qalib gəlsə, şəhər onun olsun.

Bunu eşidən Nərbala padşahın hüzuruna gəlib baş əydi:

– Qibleyi-aləm, icazə verin, sabahkı döyüşə mən çıxım.

– Aslan kimi oğlanlarıma nə gəlib ki, ölkəmi mehtər oğlu xilas eləsin! – deyə şah dilləndi. Şahın belə rəftarından Nərbala çox məyus oldu.

Ertəsi gün qoşunlar üz-üzə dayandı. Dava təbili vuruldu. Səlim şahın məşhur Dəmirbilək pəhləvanı meydana çıxdı. Əvvəl onunla Bəybala döyüşdü.



**•Söz boğçası•**

- bəsləmək
- yabı
- çəlimsiz
- qulun
- köhlən
- hasil olmaq
- qurşaq tutmaq
- rəftar

LAYİHƏ

Amma döyüş uzun çəkmədi. Dəmirbilək elə birinci zərbədə Bəybalanı atdan saldı, düşüb əl-qolunu bağladı. İşi belə görən Xanbala cəld meydana atıldı. Dəmirbilək pəhləvan bir andaca onu da Bəybalanın yanına uzatdı. Daşgüvar şah isə qəzəbdən dodaqlarını çeynəyirdi.

Bu vaxt ağ paltarlı, ağ niqablı, ağ atlı bir oğlan ildırım kimi meydana şığıdı. Atını Dəmirbilək pəhləvanın qarşısında saxladı. Döyüş başladı. Əvvəlcə ağ atlı oğlanla Dəmirbilək pəhləvan qılınc savaşına çıxdılar. Bundan bir şey hasil olmadı. Daha sonra qurşaq tutub güləşməyə başladılar. Ağ atlı oğlan bir nərə çəkib Dəmirbilək pəhləvanın kürəyini yerə çırpdı. “Əhsən” səsi göyə ucaldı. Ağ atlı oğlan Daşgüvar padşaha yaxınlaşdı, niqabını üzündən açdı:



– Qibleyi-aləm, məni qəhrəmanlığa layiq görməsən də, Vətən torpaqlarımızı təhlükəyə ata bilməzdim. Qəhrəmanlıq var-dövlətlə alınmır. Əsl qəhrəman döyüş meydanında hünər göstərəndir.

## Nə anladın?

**B** **Lüğətdən istifadə etməklə aşağıdakı sözlərin mənalarını müqayisə edin.**
*qulun, köhlən, madyan, dayça, yabı*

## Düşün və cavab ver

**C** **Hadisələrin səbəbini müəyyənləşdirib cümlələri tamamlayın.**
1. Xanbala mehtərin təklif etdiyi atı bəyənmədi, çünki ...
2. Atası Nərbalaya atı xəlvətcə sürməyi tapşırdı, çünki ...
3. Daşgüvar şah Nərbalaya döyüşmək üçün icazə vermədi, çünki ...

**Ç** **Səlim şahın Daşgüvar şaha göndərdiyi xəbəri məktub şəklində yazın.**

LAYİHƏ

## Düşün və cavab ver

**2 A Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın.**

- Xanbala kobud və təkəbbürlüdür.
- Padşah ədalətsizdir.
- Nərbala vətənpərvərdir.

• Yadda saxla • **OBRAZ XƏRİTƏSİ**

Obraz xəritəsi oxucuya mətndəki obrazları təhlil etməyə kömək edir. Obraz xəritəsində, əsasən, aşağıdakılar göstərilir:

***Obrazın təqdimatı:*** Nərbala mehtər oğludur.

***Xüsusiyyəti:*** Vətənpərvər → ***Əsaslandırma:*** Vətənin dar günündə köməyə gəlir.

***Keçirdiyi hisslər:***
- Kədərlənir.
- Fəxr edir.

→ ***Əsaslandırma:***
- Şah rəqib pəhləvanla döyüşmək üçün ona icazə verməyəndə kədərləndi.
- Vətənini təhlükədən xilas edəndə qürurlandı.

***Yadda qalan sözləri:*** Qəhrəmanlıq var-dövlətlə, taxt-tacla alınmır, döyüş meydanında qazanılır.

**B Daşgüvar şah haqqında verilmiş cümlələri obraz xəritəsinin bölmələri ilə uyğunlaşdırın.**

- Daşgüvar şah ədalətsizdir.
- Oğlanlarının uduzduğunu görən şah qəzəbdən dodaqlarını çeynəyirdi.
- Şir kimi oğlanlarıma nə gəlib ki, ölkəmi mehtər oğlu xilas eləsin!
- Mehtər oğlu olduğu üçün Nərbalaya döyüşmək üçün icazə vermədi.
- Daşgüvar hökmdardır.
- Qəzəblənir.

**C "Ağ atlı oğlan" mətnindən ov səhnəsini təsvir edən abzası dinləyin. Xanbalanın xarakterinə münasibətinizi bildirin.**



LAYİHƏ

## Dil qaydaları

**3 A Nöqtələrin yerinə uyğun sözü seçin.**

*İstifadə üçün sözlər:* **çünki, amma, və**

1. Dava təbili vuruldu ... pəhləvanlar meydana çıxdılar.
2. Heç kim ağ atlı oğlanı tanımadı, ... o, üzünə niqab bağlamışdı.
3. Dəmirbilək pəhləvan çox çalışdı, ... ağ atlı oğlana güc gələ bilmədi.

• Bunları bilməliyik • **MÜRƏKKƏB CÜMLƏDƏ VERGÜL VƏ BAĞLAYICILAR**

Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsi və köməkçi sözlərdən istifadə olunur. Belə köməkçi sözlər **bağlayıcı** adlanır.

1. Göy guruldadı, yağış yağdı.
2. Göy guruldadı **və** yağış yağdı.
3. Həsən dərsi izah etdi, **lakin** Səlim anlamadı.
4. Günəş ətrafı əvvəlki kimi isitmirdi, **çünki** qış gəlmişdi.

**B Tərkib hissələri arasında bağlayıcı işlənən mürəkkəb cümləni seçin.**

1. Zəng vurulur, şagirdlər sinfə daxil olurlar.
2. Yaz gəlmişdi, ancaq havalar hələ isinməmişdi.
3. Sara çox sevinirdi, çünki atası cəbhədən qayıtmışdı.
4. Şairlər bu haqda şeirlər yazır, bəstəkarlar mahnılar bəstələyirlər.
5. Nənə nağıl danışır, uşaqlar onu dinləyirlər.

• Diqqət et •

***Amma, ancaq, lakin, çünki, ona görə də*** bağlayıcılarından əvvəl **vergül (,)** işarəsi qoyulur. ***Və*** bağlayıcısı isə vergülsüz işlənir.

**C Nöqtələrin yerinə bağlayıcılar əlavə etməklə cümləni köçürün. Uyğun yerlərə vergül işarəsi qoyun.**

1. Payız gəldi ... quşlar isti ölkələrə uçub getdilər.
2. Hava çox soyuq idi ... ovçu qalın kürkünü geyindi.
3. Qılınc yarası sağalar ... söz yarası sağalmaz.
4. İlkin tez sağaldı ... həkim düzgün müalicə etmişdi.
5. Fırtına getdikcə güclənirdi ... balıqçılar dənizə çıxmadılar.

LAYİHƏ

# QƏHRƏMANLAR UNUDULMUR

**1 A Cavad xan haqqında bildiklərinizi xatırlayın. Bu şəxs haqqında daha nə bilmək istərdiniz?**

## CAVAD XAN | I hissə

1 1804-cü il idi. Rusiya Azərbaycanı ələ keçirməyə çalışırdı. Ruslar üçün Gəncə qalası Azərbaycanın giriş qapısı sayılırdı. Ona görə də buranı tutmaq Rusiya üçün önəmli məsələ idi.

2 Vaxtilə Gəncəyə pənah gətirmiş iki erməni rus generalı Sisyanovun yanına gəlib dedi:

– Gəncədəki ermənilər rus ordusunu səbirsizliklə gözləyirlər. Gəncəyə daxil olmaq üçün sizə gizli yolları göstərərik.

3 Sisyanov bilirdi ki, Gəncə hökmdarı Cavad xan güclü və ağıllı bir sərkərdədir. Eyni zamanda Gəncə elinin qəhrəmanlığına da bələd idi. Anlayırdı ki, daxildən kömək olmasa, Gəncəni heç vaxt tuta bilməz. Buna görə də satqın ermənilərin təklifi lap göydəndüşmə oldu.



4 Bu sözləşmədən sonra rus ordusu Gəncə qalasını mühasirəyə aldı. Şəhərdəki ermənilərə arxayın olan Sisyanov Cavad xana məktub yazdı: “Cavad xan Gəncəli, təklif edirəm ki, şəhəri davasız təhvil verəsiniz. Bu döyüşdə qələbə qazanmağınız imkansızdır. İmtina etsəniz, bəxtinizdən küsün”.

5 Sisyanovun təklifinə qəzəblənən Cavad xan ona cavab məktubu yazır: “Bu xəyaldan əl çək. Gəncəyə yalnız meyitimin üstündən keçə bilərsən! Mən öləndən sonra, özgə cür yox!”

**•Söz boğçası•**

- əlverişli
- önəmli
- pənah gətirmək
- himayə
- satqınlıq
- göydəndüşmə
- şirnikləndirmək

LAYİHƏ

## Nə anladın?

**B** **Sualları cavablandırın.**
1. Rusiya nə üçün Gəncəni tutmağa çalışırdı?
2. Sisyanov kim idi?
3. Hansı hadisə Sisyanovu daha da ürəkləndirmişdi?
4. Sisyanov Cavad xana nə təklif edir?
5. Cavad xan Sisyanova necə cavab verir?

## Düşün və cavab ver

**C** **Yarımbaşlıqların hansı abzaslara aid olduğunu müəyyən edin.**
A) Xəyanət
B) Azərbaycanın giriş qapısı
C) Tutarlı cavab
Ç) Gülünc təklif
D) Fürsətcil general



**II hissə** Səhər tezdən rus qoşunu Gəncə qalasına hücuma keçdi. Qalaya hər tərəfdən od yağdırılırdı. Gəncəlilər aslan kimi müqavimət göstərirdilər. Qala divarlarının üstündə Cavad xan oğlu Hüseynqulu ilə birlikdə rusların hücumunu igidliklə dəf edirdi. Vuruşma xeyli çəkdi. Rus ordusunun sayı dəfələrlə çox idi. Qeyri-bərabər döyüşdə Cavad xan və oğlu Hüseynqulu Vətən uğrunda həlak oldular. Yalnız bundan sonra ruslar qalaya soxula bildilər.

Rus ordusunun sərkərdələrindən biri polkovnik Karyagin öz gündəliyində sonralar yazırdı: "Cavad xanın dəfnindən bir gün keçmişdi. Biz xanın həyat yoldaşı Bəyim xanıma başsağlığı verməyə getdik. O bizi əynində çərkəzi paltar, belində xəncər, əlində Cavad xanın qılıncı qarşıladı. Xanımın baxışlarından duyulurdu ki, o bizi qatil sayır. Sisyanov barışıq üçün ona pul təklif etdi. Qadın pul dolu kisəni generalın üzünə çırpdı. Qızıl onluqlar Sisyanovun üz-gözünə dəyib ayaqlarının altına töküldü".



**Söz boğçası**
- müqavimət
- başsağlığı
- çərkəzi
- əbədiləşdirmək
- türbə

LAYİHƏ

Gəncə camaatı qəhrəman Cavad xanı Cümə məscidinin həyatində dəfn etdi. Burada onun türbəsi ucaldılıb. Gəncədə və Bakıda cəsarətli Azərbaycan oğlunun şərəfinə küçə və xiyabanlar var. Xalq öz qəhrəmanlarını heç vaxt unutmur, onların xatirəsini daim yaşadır.



## Nə anladın?

**Ç** **Mətnə əsasən suallara cavab verin.**

1. Gəncəlilər düşmənə qarşı necə vuruşurdular?
2. Karyagin kim idi?
3. Cavad xanın həyat yoldaşının adı nə idi?
4. Ruslar Gəncəyə neçənci ildə hücum ediblər?
5. Cavad xan harada dəfn edilib?

**D** **Aşağıdakı sözləri mətnə çəkilmiş şəkillərlə uyğunlaşdırın.**

1. qala 2. çərkəzi 3. türbə

## Araşdırma

**E** **Qruplara ayrılın və Gəncə ilə bağlı araşdırma aparın.**

**1-ci qrup:** Gəncə qapıları **3-cü qrup:** Gəncə qalası
**2-ci qrup:** Gəncə xanlığı **4-cü qrup:** General Sisyanov

**2 A** **"Ağ atlı oğlan" və "Cavad xan" mətnlərini müqayisə edin.**

1. Hansı mətndə hadisələrin dəqiq vaxtı göstərilir?
2. Hansı mətndə hadisələrin baş verdiyi yer göstərilir?
3. Hansı mətn həqiqi faktlar əsasında yazılıb?

**Faydalı məsləhət**

Bəzi mətnlər keçmişdə baş vermiş həqiqi hadisələri əks etdirir. Buna **tarixi hadisə** deyilir. Bu cür mətnləri oxuyarkən aşağıdakılar haqqında əlavə məlumatlar əldə etməyə çalışın:

- hadisələrin baş verdiyi yer və zaman;
- hadisələrin iştirakçısı olan tarixi şəxsiyyətlər.

## Təqdimat

**B** **Oxuduğunuz mətn və topladığınız məlumatlar əsasında Gəncənin ruslar tərəfindən işğalı haqqında yaddaş xəritəsi tərtib edin.**

LAYİHƏ

# Dil qaydaları

**3 A** **Nöqtələrin yerinə uyğun bağlayıcılar yazın.**

1. Ruslar Gəncəni tutmağa çalışırdı, ... şəhərin əlverişli mövqeyi vardı.
2. Sisyanov təslim olmağı təklif etdi, ... Cavad xan razılaşmadı.
3. Qapı açıldı ... Cavad xanın xanımı əlində qılınc içəri daxil oldu.

• Bunları bilməliyik • **BAĞLAYICILARIN NÖVLƏRİ**

Mürəkkəb cümlədə ifadə olunan fikirlər arasında müxtəlif məna əlaqələri olur. Bundan asılı olaraq fərqli bağlayıcılardan istifadə edilir.

1. Fikirlər bir-birinin davamı kimi verilə bilər.

   *Payız gəldi **və** yarpaqlar saraldı.*

2. Fikirlər qarşılaşdırıla bilər.

   *Payız gəldi, **amma** yarpaqlar hələ saralmamışdı.*

3. Fikirlərdən biri səbəb, digəri onun nəticəsi ola bilər.

   *Yarpaqlar saralmışdı, **çünki** payız gəlmişdi.*

**B** **Cümlələrdəki bağlayıcıları aşağıdakı cədvəl üzrə qruplaşdırın.**

| Birləşdirir | Qarşılaşdırır | Səbəbini ifadə edir |
|---|---|---|
| | | |

1. Göyün üzü tutuldu, ildırım çaxdı və güclü yağış yağdı.
2. Səlim gəlib çıxdı, ancaq Saleh hələ də gözə dəymirdi.
3. Böyüklərə hörmətlə yanaş, çünki özün də qocalacaqsan.
4. Biz xoşbəxtik, ona görə ki qəhrəman övladlarımız var.
5. Qapı açıldı və içəri ucaboylu bir oğlan daxil oldu.

**C** **Mürəkkəb cümlə yaradın. Tərkib hissələri arasında uyğun bağlayıcıdan istifadə edin.**

1. Yaz gəldi.
2. Müəllim bir də izah etdi.
3. Qar yağmışdı.

a) Sara yaxşı anlamamışdı.
b) Hava soyuq deyildi.
c) Buzlar əridi.

**Ç** **Bağlayıcılara diqqət edin. Səhvləri düzəldərək cümlələri köçürün.**

1. Arzu dərslərini bitirdi, çünki kitablarını çantasına qoydu.
2. Mina həkim olmaq istəyirdi, lakin gecə-gündüz çalışırdı.
3. Nənəsi yorğanı onun üstünə çəkdi və yuxusu gəlmirdi.
4. Xalq igidləri alqışladı, ancaq onlar qələbə qazanmışdılar.

LAYİHƏ

# MÖHTƏŞƏM DÖNÜŞ

**1 A Qarabağ müharibəsində iştirak etmiş hansı qəhrəmanları tanıyırsınız? Onların qəhrəmanlığı haqqında bildiklərinizi danışın.**

## BURA VƏTƏNDİR!

**I hissə** **1993-cü il, avqust ayı. Füzuli rayonu...**

İlqar təpənin üstündə oturub kəndi seyr edirdi. Cəbhədə döyüşən atası üçün darıxanda həmişə bu təpəyə qalxardı. Kəndi qucağına almış Ərgünəş dağına baxaraq atasının danışdığı əfsanəni xatırlayardı:

"Belə danışırlar ki, keçmiş zamanlarda düşmənlər Vətənimizə basqın edibmiş. Ərənlərimiz silahlanıb düşmən qarşısına çıxırlar. İgidlərdən biri kəndə yaxınlaşan düşmən ordusunu görüb Allaha dua edir: "Allahım, məni bir dağa çevir, ordunun qarşısını kəsim. Yağı düşmənin ayağı torpağımıza dəyməsin. Elə bu vaxt igid hündür bir dağa çevrilir. Deyirlər ki, hətta günəş də sanki bu dağa sayğı göstərir. İlk şüalarını onun üzərinə salır, əvvəlcə onu isindirir. Camaat bu dağı Ərgünəş adlandırır. Bu dağ əzəmət, yenilməzlik rəmzi sayılır".

Elə bu vaxt bacısının səsi onu xəyalından ayırdı:

– İlqar, anam səni çağırır. Evə gəl.

İlqar təpənin başında çay daşları ilə yazdığı "Bura Vətəndir" sözlərinə bir daha nəzər salıb aşağı endi.

Bacı-qardaş təzəcə evə çatmışdılar ki, dəhşətli partlayış səsi kəndi lərzəyə gətirdi. Düşmənin atdığı raket kəndin ayağına, dəyirmanın yanına düşmüşdü.




LAYİHƏ

İlqarın anası həyəcanla qışqırdı:

– A bala, cəld ol, əşyalarını götür, tez getməliyik. Qadınları, uşaqları, qocaları kənddən çıxarıb təhlükəsiz yerə aparırlar.

– Mən istəmirəm, getmək istəmirəm!

– Oğlum, inad etməyin yeri deyil, camaat bizi gözləyir, onları da təhlükəyə atırıq.

Bir azdan bir neçə ailənin oturduğu avtobus kənddən uzaqlaşdı. İlqar kədərli baxışlarla Ərgünəş dağı ilə sağollaşdı:

– Biz qayıdana kimi kəndimizə yaxşı bax!

***

**II hissə** **1999-cu il. Bərdə rayonu...**

İlqargil Bərdə rayonundakı qaçqın şəhərciyində məskunlaşmışdılar. O artıq doqquzuncu sinifdə idi. Dərslərini əla qiymətlərlə oxuyurdu. Riyaziyyata isə xüsusi maraq göstərirdi. Onun bu marağı və riyazi bacarıqları Sabir müəllimin diqqətini cəlb etmişdi. Onların maraqlı müzakirələri olurdu. Bir dəfə İlqar dedi:

– Sabir müəllim, bilirsinizmi, elə qurğular var ki, raketləri elə havadaca zərərsizləşdirir. Yerə düşüb partlamasına imkan vermir.

– Bilirəm, bu cür qurğuları idarə edən kompüter proqramları var. İlqar, səndən əla proqramçı olar.

Çox keçmədi ki, İlqar riyaziyyat üzrə keçirilən olimpiadalarda qızıl medal qazandı. Orta məktəbi əla qiymətlərlə bitirdi. Arzuladığı kimi informasiya texnologiyaları üzrə ali təhsil almağa başladı. Təhsil Nazirliyi əlaçı tələbə kimi İlqarı təhsilini davam etdirmək üçün Amerika Birləşmiş Ştatlarına göndərdi...

**Söz boğçası**

- əfsanə
- möhtəşəm
- ərən
- yağı
- örüş
- sayğı
- əzəmət
- lərzəyə gətirmək

## Nə anladın?

**B** **Mətnlə bağlı suallara cavab verin.**

1. İlqar niyə kəndlərindən uzaq düşmüşdü?
2. İlqargilin ailəsi hansı rayonda məskunlaşmışdı?
3. İlqar hansı uğurları qazandı?

**C** **İlqarın atasının danışdığı əfsanəni nəql edin.**

LAYİHƏ

## Düşün və cavab ver

**Ç** **Sizcə, nə üçün mətndə məhz Ərgünəş dağı haqqında əfsanə verilir?**

**D** **Sizcə, nə üçün mətnin hər hissəsinin əvvəlində hadisələrin baş verdiyi il və yer haqqında məlumat verilir?**

• Yadda saxla •

Tarixi hadisələr yalnız informativ mətnlərdə deyil, bədii mətnlərdə də əks oluna bilər. Məsələn: "Bura Vətəndir!" bədii mətnində Füzulinin işğal olunması tarixi hadisədir.

**E** **"Bura Vətəndir!" mətnində təsvir edilmiş tarixi hadisələri seçin.**

- Füzuli 1993-cü ildə işğal olunub.
- İlqar çox ağıllı və çalışqan şagird idi.
- 1999-cu ildə Bərdə şəhərində qaçqın şəhərciyi olub.
- İlqar əlaçı tələbə olduğu üçün Amerikaya göndərildi.
- El-obasından köçkün düşənlər qaçqın şəhərciyində məskunlaşıblar.

**2 A** **2020-ci ildə Azərbaycan ordusu işğal altındakı torpaqlarımızı düşməndən azad etdi. Bu şanlı hadisə haqqında nə bilirsiniz?**
**"Bura Vətəndir!" mətninin davamını oxuyun. Mətndəki hadisələri bildiyiniz faktlarla müqayisə edin.**



**III hissə** **2020-ci il, oktyabr ayı. Füzuli rayonu...**

İlqar qapını açıb içəri daxil oldu.

– Cənab general-polkovnik, icazə verin, məruzə edim. Bu gün düşmənin Füzuli istiqamətində atdığı raketlər zərərsizləşdirilib. Pilotsuz uçuş aparatlarımızla dörd düşmən tankını məhv etmişik. Düşmən geri çəkilib. Rəşadətli ordumuz növbəti kəndləri azad etmək üçün irəliləyir.

– Mayor Rzayev, təbrik edirəm. Bu günü 27 ildir ki, gözləyirdik. Vətən torpağı bizi səsləyir.

İlqar Amerikada təhsilini bitirdikdən sonra Azərbaycan ordusunda xidmət edirdi. O, raketlərin və dronların məsafədən idarə edilməsi üzrə mütəxəssis idi. Düşmən texnikasının məhv edilməsində İlqarın da böyük xidməti var idi.

LAYİHƏ

Növbəti gün Azərbaycan ordusu Füzulinin daha bir neçə kəndini işğaldan azad etdi. Bu kəndlər arasında İlqarın həsrətlə gözlədiyi doğma kəndi də vardı.

Əsgərlərlə dolu hərbi maşın kəndə daxil oldu. İlqar maşından düşər-düşməz Alacıq təpəsinə tərəf qaçdı. Gözləri çay daşları ilə yazdığı "Bura Vətəndir" sözlərini axtarırdı. Birdən dizləri üstə çöküb qarşısındakı daşları sığalladı:

– Buradasan! Yerindəsən! İllərdir, səni görməsəm də, bilirdim ki, həmişə mənimsən! Əmin idim ki, ərənlər ərəni Ərgünəş qoruyacaq səni!

O, üçrəngli Azərbaycan bayrağını təpəyə sancdı. Sevinc, qürur, həsrət qarışıq göz yaşları içində qışqırdı:

– Bura Vətəndir!

*Ülkər Nurullayeva*




**Söz boğçası**

• məruzə etmək • rəşadətli • əmin olmaq • dron

## Nə anladın?

**B** **Mətnin məzmununa əsasən *pilot, dron, proqramçı* sözlərini izah edin.** **Açar sözlər:** *uçuş aparatı, idarə edən, kompüter proqramı, məsafədən idarə, müşahidə, bombardman, mütəxəssis.*

**C** **"Bura Vətəndir" mətnini uyğun başlıqlarla adlandırın və plan əsasında mətni nəql edin.**

## Düşün və cavab ver

**Ç** **Mətnin 3-cü hissəsində hansı tarixi hadisə təsvir edilib?**

## Təqdimat

**D** **Azərbaycan əsgəri ilə müsahibə hazırlayın və təqdim edin.**

LAYİHƏ

## Dil qaydaları

**3 A** **Verilmiş cümlədəki bağlayıcını müəyyən edin. Onu hansı bağlayıcı ilə əvəz etsək, cümlənin mənası dəyişməz?**

*İlqarın gözləri yaşla dolmuşdu, lakin bu, sevinc göz yaşları idi.*

a) ancaq  b) çünki  c) ona görə ki

• Bunları bilməliyik • **BAĞLAYICILARIN BİR-BİRİNİ ƏVƏZ ETMƏSİ**

**Bəzi bağlayıcılar yaxınmənalı olduğu üçün bir-birini əvəz edə bilir.**

Məsələn:

*Biz fəxr edirik, çünki ordumuz qələbə qazanıb.*

*Biz fəxr edirik, ona görə ki ordumuz qələbə qazanıb.*

**B** **Fərqləndirilmiş sözləri uyğun gələn sözlə əvəz edib cümləni köçürün.**

1. Ayşə incimişdi, ***ona görə ki*** Lalə onu çağırmamışdı. (amma, çünki)
2. Üzümlərə çoxlu arı yığışmışdı, ***ancaq*** babam qorxmurdu. (və, lakin)

• Diqqət et •

***Və** bağlayıcısı bəzən sözləri də bir-birinə bağlaya bilir. Bu zaman onu **ilə** bağlayıcısı ilə əvəz etmək olur.*

nümunə

Ayşə ***ilə*** Lalə rəqs dərnəyinə gedirlər.
Ayşə ***və*** Lalə rəqs dərnəyinə gedirlər.

**C** **Hansı cümlələrdə *və* bağlayıcısını *ilə* bağlayıcısı ilə əvəz etmək olar?**

1. Qonaqlar yığışdılar və şənlik başladı.
2. Babam və nənəm şəhər kənarındakı bağda yaşayırlar.
3. Tamaşa bitdi və hamı aktyorları alqışladı.
4. Ad günümə yalnız Könül və Aynuru dəvət etmişəm.
5. Mağazadan qələm və dəftər aldım.

**Ç** **Bağlayıcını uyğun gələn digər bağlayıcı ilə əvəz edib cümlələri köçürün.**

1. Göy guruldadı, ancaq yağış yağmadı.
2. Nənə ilə nəvə şirin söhbət edirdilər.
3. Azarkeşlər idmançıları alqışladılar, çünki onlar qalib gəlmişdilər.
4. Toplan bərkdən hürürdü, ona görə ki həyətə tülkü girmişdi.
5. Arif və Sabir yaxın dostlardır.

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**A** **Nöqtələrin yerinə uyğun gələn köməkçi sözlər artırın.**

*və, ura, bəs*

1. ... ordumuz torpaqlarımızı azad etdi!
2. ... biz dost deyildik?
3. Məktəbin kitabxanası geniş ... işıqlıdır.

**B** **Verilmiş fikirlərə daha bir fikir əlavə edərək mürəkkəb cümlə düzəldin.**

1. Payız gəldi, ...
2. Müəllim Zivəri tərifədi, ...
3. Maşınlar dayandı, ...
4. Sevda ağlayırdı, ...

**C** **Bağlayıcıdan asılı olaraq cümləni tamamlayın.**

1. Güclü yağış yağırdı və ...
2. Güclü yağış yağırdı, lakin ...
3. Güclü yağış yağırdı, ona görə də ...

**Ç** **Cümlələrdəki bağlayıcılara diqqət edin. Uyğunluğu müəyyənləşdirin.**

1. Qış gəldi və ayılar yuxuya getdilər.
2. Ana fəxr edirdi, çünki oğlu qalib gəlmişdi.
3. Musa dincəlirdi, amma Səlim hələ də işləyirdi.

a) Qarşılaşdırır.
b) Birləşdirir.
c) Səbəb bildirir.

**D** **Mürəkkəb cümlə düzəldin.**
**Tərkib hissələri arasında uyğun bağlayıcıdan istifadə edin.**

1. Zəng vuruldu.
2. Bağban sevinirdi.
3. Samir yatmaq istəyirdi.

a) Əkdiyi ağaclar əla məhsul vermişdi.
b) Uşaqların səs küyü ona mane olurdu.
c) Müəllim sinfə daxil oldu.

**E** **Vergül işarəsinin işləndiyi məqamlara diqqət edin.**
**Səhvləri düzəldərək cümlələri köçürün.**

1. Sərdar bağçadan moruq yığdı, və nənəsi ondan mürəbbə bişirdi.
2. Tikan Həsənin əlinə batdı lakin, Həsən səsini çıxarmadı.
3. Toyuq bərkdən qaqqıldadı çünki, cücəsi gölməçəyə düşmüşdü.

LAYİHƏ

# 7 ODLAR YURDU

**A** **Aşağıda müxtəlif ölkələrin rəmzi sayılan abidələr haqqında məlumat verilmişdir. Bu məlumatlar əsasında həmin abidələr haqqında danışın.**

**KOLİZEY**



**Şəhər:** Roma (İtaliya)
**İnşa tarixi:** 72-80-ci illər
**Hündürlüyü:** 48 m
*Açıq səma altında muzeydir.*

**BİQ BEN**



**Şəhər:** London (İngiltərə)
**İnşa tarixi:** 1859-cu il
**Hündürlüyü:** 96 m
*Üzərində nəhəng saat olan böyük qüllədir.*

**AYA SOFYA**



**Şəhər:** İstanbul (Türkiyə)
**İnşa tarixi:** 532-537-ci illər
**Hündürlüyü:** 83 m
*Əvvəllər muzey olub, indi məscid kimi fəaliyyət göstərir.*

**KREML**



**Şəhər:** Moskva (Rusiya)
**İnşa tarixi**: 1482-1495-ci illər
**Hündürlüyü:** 80 m
*Müdafiə qalası kimi tikilmişdir. Kərpicdən tikilmiş 20 qülləsi var.*

**B** **Azərbaycanın paytaxtı Bakıda yerləşən abidələr haqqında bildiklərinizi danışın. Siz onlardan hansını Azərbaycanın rəmzi hesab edərdiniz?**





LAYİHƏ

**C** **Sizcə, nə üçün Azərbaycanı “Odlar yurdu” adlandırırlar? Fikirlərinizi aşağıda verilmiş məlumatlarla müqayisə edin.**

Azərbaycan ərazisi neft və qazla zəngindir. Bəzi yerlərdə təbii qaz üzə çıxaraq yanmağa başlayır. Belə yerlərdən biri də Yanardağdır.

Yanardağ Abşeronun Məhəmmədi kəndi yaxınlığında yerləşir. Burada yer altından çıxan qaz havadan asılı olmayaraq gecə-gündüz yanır.

**YANARDAĞ**



Atəşgah Azərbaycanın qədim abidələrindən biridir. Bakının Suraxanı rayonunda yerləşir. Keçmiş zamanlarda burada yerdən çıxan qaz alovlanıb yanırmış. Təxminən 300 il əvvəl burada Atəşgah məbədi inşa edildi. Atəşgah “Alov evi” deməkdir. Oda sitayiş edən insanlar bura gələrək ibadət edirmişlər.

Bu gün Atəşgah dövlət tərəfindən muzey kimi qorunur.

**ATƏŞGAH**



**Ç** **Məlumat vərəqini oxuyun. Azərbaycan haqqında danışın.**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**Paytaxt:** Bakı
**Həmsərhəd ölkələr:** Rusiya, Gürcüstan, Türkiyə, Ermənistan, İran, Qazaxıstan, Türkmənistan
**Ən hündür zirvə:** Bazardüzü
**Çaylar:** Kür, Araz, Tərtərçay, Samurçay və s.
**Göllər:** Göygöl, Maralgöl, Hacıqabul gölü, Batabat və s.
**Dağlar:** İlandağ, Şahdağ, Tufandağ, Murovdağ və s.




**Əlavə məlumatlar:**
1990-cı illərin əvvəllərində Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ ermənilər tərəfindən işğal olunmuşdu. 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycan ordusu Qarabağı düşməndən azad etdi.

LAYİHƏ

# ODLAR OĞLU

**1A Azərbaycan ərazisindəki hansı dağları tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.**

## ALDƏDƏ ƏFSANƏSİ

Keçmiş zamanlarda Odlar ölkəsində Aldədə adlı bir adam vardı. Onun sorağı bütün aləmə yayılmışdı. Deyirdilər ki, Aldədə möcüzələr yaradır. Ən inanılmaz möcüzə də odur ki, Aldədəni od yandırmır.

Bu xəbər Bağdad xəlifəsinə də çatdı. O, inandığı adamlardan üç nəfəri yanına çağırıb dedi:

– Odlar ölkəsinə gedin. Aldədəni tapın. Həqiqətən, möcüzəli adamdırsa, ona toxunmayın və bütün istəyini yerinə yetirin. Yox, görsəniz ki, camaatı aldadır, həmin dəqiqə boynunu vurun.

Xəlifənin adamları dərhal üz tutdular Odlar ölkəsinə. Gəlib Haçaqaya deyilən yerə çatdılar. Gördülər ki, geniş çöldə qoyun sürüsü, at ilxısı otlayır. Aldədə isə hündür bir daşın üstündə oturub. Xəlifənin adamları yaxınlaşıb salam verdilər. Biri dedi:

– Uzaq yerdən gəlirik. Yaman acmışıq. Bəlkə, bir ocaq qalayasan.

Aldədə arif adam idi, ərəblərin niyyətini başa düşmüşdü. O, cəld ayağa qalxdı, ocaq qaladı. Sürüdən bir quzu ayırıb kəsdi. Quzunun qolunu, budunu əlindəcə közə tutub bişirdi. Kabab hazır oldu. Aldədənin əlinə odun heç təsiri də olmadı.

– Bu nə möcüzədir? – deyə ərəblər heyrətləndilər.

– Möcüzə yoxdur. Mən Odlar diyarının od oğluyam. Od odu yandırmaz.

Xəlifənin adamlarından biri dedi:

– Sən öz qaladığın odda, bəlkə də, yanmazsan. Ancaq biz ocaq qalayarıq, elə yanarsan ki, heç külün də qalmaz.

Onlar yurdda bir təndir qaladılar. Təndir elə yanırdı ki, alov dilimləri az qala Haçaqayanın zirvəsinə çatırdı. Xəlifənin adamları bir quzu kəsib Aldədənin qucağına verdilər. Əmr elədilər

**•Söz boğçası•**
- arif
- xəlifə
- boynunu vurmaq
- ilxı
- sal daş



LAYİHƏ

ki, girsin təndirə. Aldədə  dinməz-söyləməz əmri yerinə yetirdi. Adamlar təndirin ağzını iri sal daşla möhkəm bağlayıb yatmağa getdilər.

Səhər oldu. Xəlifənin adamları təndirin ağzını açanda gözlərinə inanmadılar. Aldədənin saqqalından buz parçaları sallanırdı. Əlindəki quzu isə qıpqırmızı qızarmışdı. Ərəblərdən biri dedi:

– Bu, əsl möcüzədir. İndi sənə inandıq. Xəlifəmiz əmr edib ki, sənin hər bir istəyini yerinə yetirək. Buyur, diləyini söylə.

Aldədə üç iri çubuq götürüb dedi:

– Mənim sizdən bircə istəyim var. Bu çubuqların hərəsini bir tərəfə atacağam. Hara düşsə, gərək buradan ora kimi olan torpaqlara toxunmayasınız.

Xəlifənin adamları çox sevindilər. Fikirləşdilər ki, yaşlı adamdır, yəqin ki, onun atdığı çubuq çox uzağa düşə bilməz. Odur ki razılaşdılar.

Aldədə çubuqları atdı. Çubuqlar göydə fırlanıb yox oldu. Ərəblər təəccüblə soruşdular:

– Çubuqlar hara düşdü?

– Biri Savalan dağına, biri Ağrıdağa, o biri isə Şahdağa, – Aldədə dedi.



Xəlifənin adamları bir ağızdan qışqırdılar:

– Bu ki elə Odlar ölkəsidir.

Aldədə dedi:

– Şərtimiz şərtdir. Kişinin sözü bir olar. Gərək əməl edəsiniz.

Xəlifənin adamları gördülər ki, Aldədə ağıllı olduğu qədər də torpağına bağlı bir insandır. Onlar Aldədə ilə sağollaşaraq öz ölkələrinə qayıtdılar.

Beləcə, Aldədə Odlar yurdunu uzun müddət yadellilərin hücumundan xilas etdi.

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Bağdad xəlifəsi öz adamlarına nə tapşırdı?
2. Aldədə yadelliləri necə təəccübləndirdi?
3. Aldədənin atdığı çubuqlar hansı dağlara düşdü?

LAYİHƏ

## Düşün və cavab ver

**C** **Mətndə adı çəkilən dağların təxmini yerini müəyyən edin. Azərbaycanın sərhədləri haqqında bildiklərinizi danışın.**




**2 A** **"Aldədə əfsanəsi"ndəki Aldədə obrazına aid hansı hərəkətləri qeyri-adi hesab edirsiniz?**

- qoyun otarması
- odda yanmaması
- çubuqları dağın başına atması
- torpağını sevməsi
- müdrik danışması
- saqqalından buz sallanması

**• Yadda saxla • ƏFSANƏ**

Qədim zamanlarda insanlar bəzi hadisə və varlıqların yaranma səbəbini anlamırdılar. Bu zaman onlar möcüzəli əhvalatlar uydururdular. Belə əhvalatlar **əfsanə** adlanır.

**B** **"Ayla Günəşin əfsanəsi"ni dinləyin. Əfsanənin məzmununa aid beş sual tərtib edin və suallar əsasında əfsanəni nəql edin.**

**C** **Dinlədiyiniz mətndəki hansı epizodlar mətnin əfsanə olduğunu təsdiq edir?**

**Ç** **Aşağıdakı şəkillərdə təsvir olunmuş varlıqlardan biri haqqında əfsanə uydurub nəql edin.**



*maral*



*qızılgül*

**Faydalı məsləhət**

Hər bir varlığın özünəməxsus qəribə xüsusiyyəti olur. Əfsanə uydurarkən həmin xüsusiyyətə diqqət yetirmək lazımdır. Məsələn, maralın buynuzu heç bir başqa heyvanın buynuzuna bənzəmir, daha çox budaqlı ağaca oxşayır.

LAYİHƏ

# Dil qaydaları

**3 A** **Cümlələri oxuyun. Sizcə, ikinci cümlədəki "o" hansı sözün yerinə işlənib?**

*1. Şəbnəm üçüncü sinifdə oxuyur. 2. O, dərs əlaçısıdır.*

• Bunları bilməliyik • ŞƏXS ƏVƏZLİYİ

Hər bir varlığın adı var. Nitqdə bu adlar çox zaman *mən, siz, o* və s. sözlərlə əvəz olunur.

İnsan özü haqqında danışarkən *mən, biz,* söhbət etdiyi şəxsə *sən, siz*, haqqında danışdığı varlığa *o, onlar* deyir.

Bu sözlər **şəxs əvəzliyi** adlanır.

**B** **Cədvəldən istifadə etməklə şəxs əvəzlikləri haqqında verilmiş məlumatları tamamlayın.**

ŞƏXS ƏVƏZLİKLƏRİ

*Şəxs əvəzlikləri təkdə və cəmdə olur.*
*Birinci şəxsin təki – "**mən**" əvəzliyidir.*
*İkinci şəxsin təki isə ...*

| | ŞƏXS ƏVƏZLİKLƏRİ | |
|---|---|---|
| | Tək | Cəm |
| *I şəxs* | *Mən* | *Biz* |
| *II şəxs* | *Sən* | *Siz* |
| *III şəxs* | *O* | *Onlar* |

**C** **Cümlələrdə işlənmiş şəxs əvəzliklərini və onların hansı şəxsə aid olduğunu müəyyən edin.**

1. Sən ən yaxın dostumsan.
2. Biz filmə baxdıq.
3. Mən kitablarımı səliqəli saxlayıram.
4. Biz bu gün sizi gözləyirik.
5. Onlar sənə qayğı göstərirlər.
6. O mənim qonşumdur.
7. Sizdən razılıq etdilər.

**Ç** **Nöqtələrin yerinə uyğun şəxs əvəzlikləri artırmaqla cümlələri köçürün.**

1. ... şagirdəm.
2. ... idmançıyıq.
3. ... mehribansan.
4. ... vətənpərvərsiniz.
5. ..., qoçaqdır.
6. ... çalışqandırlar.

**D** **Cümlələrdə şəxs əvəzliklərinin hansı sözü əvəz etdiyini müəyyən edin.**

*Fərhad məktəbdən gəlirdi. Yolda Səlimlə qarşılaşdı. O, Səlimdən soruşdu:*

*– Sən tələsirsən? Qələmim sınmışdı, onu tulladım. Gəl biz mağazaya girək, mən qələm alım.*

*Uşaqlar mağazaya yollandılar. Onlar qələm aldılar.*

• Nümunə •
*O — Fərhad*

LAYİHƏ

•fəsil• 2

# GÖYÇƏ GÖLÜ

**1 A Azərbaycan ərazisindəki hansı gölləri tanıyırsınız? Onlar haqqında bildiklərinizi danışın.**

## GÖYÇƏ GÖLÜ ƏFSANƏSİ

Qədim zamanlarda Odlar yurdunda bir düzənlik varmış. Bu düzənlikdə əkinçi və maldar tayfaları yaşayırmış. Onlar heyvan saxlamaqla, əkin-biçinlə ailələrini dolandırırmışlar.

Bu ərazi çox mənzərəli və bərəkətli imiş. Mənfur düşmənlər həmişə bu torpağı ələ keçirmək istəyirmişlər. Mahalın mərd, döyüşkən oğulları isə öz torpaqlarını göz bəbəyi kimi qoruyarmışlar.

Bu düzənlikdə bir təpənin ortasından bulaq süzülürmüş. Bulağın suyu buz kimi soyuq imiş. Bulağın bir qəribəliyi varmış. Hər su götürəndən sonra bulaq sel kimi aşıb-daşarmış. Ona görə camaat ona kip bağlanan qapaq düzəldibmiş. Su götürəndən sonra bulağın ağzını qapaqla örtürmüşlər ki, su daşmasın.

Bir gün düşmən bu mahala hücum edir. Ağır döyüşdə tayfanın igid oğullarından biri itkin düşür. Xeyli vaxt ondan xəbər çıxmır. Oğlanın bacısı Göyçək gecə-gündüz ah-nalə edərək göz yaşı axıdır.

Bir gün qız fikirli-fikirli bulağa gəlir. Səhəngini doldurur. Elə bu vaxt bir oğlan uşağı qaça-qaça xəbər gətirir ki, qardaşın tapılıb. Sevincdən az qalır ki, Göyçəyin ağlı başından çıxsın. Səhəngi cəld çiyninə alıb qaçır. Bulağın ağzını örtmək yadından çıxır. Bulağın suyu aşıb-daşmağa başlayır. Bütün gecəni çölə axan su böyük göl əmələ gətirir.

Həmin gündən insanlar ərazini də, gölü də Göyçə adlandırırlar.



**•Söz boğçası•**

• maldar • tayfa • səhəng • mənfur • ah-nalə • kip

LAYİHƏ

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Göyçədə yaşayan insanların məşğuliyyəti nə idi?
2. Düşmənlər nə üçün Göyçəyə tez-tez hücum edirdilər?
3. Təpədəki bulaq başqalarından nə ilə fərqlənirdi?
4. Göyçək niyə bulağın ağzını örtmədi?
5. Gölü niyə Göyçə adlandırdılar?

**C** **“Göyçə mahalı” mətnini oxuyun və suallara cavab verin.**

**GÖYÇƏ MAHALI**

Azərbaycanın ən qədim ərazilərindən biri də Göyçə mahalıdır. Min il bundan əvvəl yaranmış “Dədə Qorqud” dastanında Göyçənin adı çəkilir.

Bu ərazidə yerləşən ən böyük göl də Göyçə adlanır. Burada yaşayan insanlar, əsasən, maldarlıq, əkinçilik, arıçılıq və s. təsərrüfat işləri ilə məşğul olurdular.

Ermənilər bu torpaqları ələ keçirmək üçün məkrli planlar qururdular. Nəhayət, 100 il əvvəl onlar bu ərazini Rusiyanın köməyi ilə zəbt etdilər. Ermənilər Göyçə gölünün adını dəyişib Sevan qoydular.

20-ci əsrin sonlarında mənfur ermənilər azərbaycanlıları öz dədə-baba torpaqları olan Göyçədən didərgin saldılar. Bu gün həmin soydaşlarımız doğma torpaqlara qayıtmaq arzusu ilə yaşayırlar.

**Söz boğçası**
- didərgin salmaq
- zəbt etmək

**Ç** **Mətndəki faktlar “Göyçə gölü əfsanəsi”ndəki hansı məlumatları təsdiq edir?**

**D** **Mətndəki hansı faktlar Göyçənin əvvəllər Azərbaycan torpağı olduğunu sübut edir?**

**E** **Göygölün yaranması haqqında məlumatı oxuyun.**
**Bu mətni “Göyçə gölü əfsanəsi” ilə müqayisə edin.**

*1139-cu ildə Gəncədə güclü zəlzələ baş verdi. Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsdi. Həmin yerdə çayın axını dayandı və göl əmələ gəldi.*

*Yaranan bu göl **Göygöl** adlandı.*

LAYİHƏ

**2 A** **"Göyçə gölü əfsanəsi"ndən verilmiş cümləyə diqqət yetirin. Bu cümlədə bulağın suyu nəyə bənzədilib?**

*Bulağın suyu buz kimi soyuq idi.*

• Yadda saxla • **BƏNZƏTMƏ**

Bədii mətndə hər hansı varlığı təsvir etmək üçün bəzən onu başqa bir varlığa bənzədirlər.

• Nümunə • **Lalə quş kimi uçurdu.**

*bənzəyən* — *bənzədilən*

**B** **Cümlələrdə altından xətt çəkilmiş sözləri uyğun ifadələrlə əvəz edərək oxuyun.**

1. Qarpızın <u>çox şirin</u> dadı var.
2. O, <u>cəld</u> düşmənin üstünə şığıdı.
3. Maşının mühərriki <u>dəqiq</u> işləyir.
4. Şəhərin yolları <u>çox hamar</u> idi.
5. Uşağın üzü qorxudan <u>ağappaq</u> olmuşdu.

- qartal kimi
- qar kimi
- bal kimi
- saat kimi
- şüşə kimi

**C** **Bənzəyən və bənzədiləni uyğunlaşdırmaqla cümlələri tamamlayın.**

1. ... <u>polad</u> kimi iradəsi var.
2. ... <u>qazan</u> kimi qaynayırdı.
3. ... <u>dəniz</u> kimi dalğalanırdı.
4. ... <u>göz yaşı</u> kimi dumduru idi.

a) Məktəbin həyəti
b) Üçrəngli bayrağımız
c) Bulağın suyu
ç) Mənim atamın

**Ç** **Cümlələri köçürün. Bənzəyən və bənzədilənin altından xətt çəkin.**

• Nümunə • *Zəhmətdən bərkiyən qabarlı <u>əllər</u> <u>daş</u> kimi möhkəm idi.*

1. İgidlərimiz Vətənin keşiyində dağ kimi dayanıblar.
2. Firuz baba nəvəsinin gəlişinə uşaq kimi sevinirdi.
3. Məstan düşmənin üzərinə pələng kimi atıldı.
4. Günelin yanaqları lalə kimi qızarmışdı.
5. Külək qurd kimi ulayırdı.
6. Körpənin saçları ipək kimi yumşaq idi.

LAYİHƏ

# Dil qaydaları

**3 A** **Cümlələri oxuyun. Hərəkət bildirən sözləri seçin. Həmin sözlərə sual verin.**

1. Aldədə möcüzə yaradır.
2. Xəbər Bağdad xəlifəsinə çatdı.
3. Ərəblər təəccübləndilər.
4. Bu çubuqların hərəsini bir tərəfə atacağam.

**• Bunları bilməliyik •** **FEİL NƏDİR**

Hərəkət bildirən sözlər **feil** adlanır.
Cümlələrdə feillər müxtəlif şəkilçilər qəbul edə bilər:
*Orxan mahnı oxuyacaq. Lalə kitab oxudu. Uşaqlar nağıl oxuyurlar.*
Feil nə etmək? nə etdi? nə edir? nə edəcək? və s. suallardan birinə cavab verir.

**B** **Verilmiş feilləri kök və şəkilçiyə ayırın.**

*danışır, oynadı, güləcək, soruşdu, getdi, sevir, yazacaq, açır, qoruyar, böyüdü, susacaq, saxlayar, gördü, yoxlayır, keçdi*

**C** **Cümlələrdəki fikirdən asılı olaraq onları təsdiq və ya inkar feillə tamamlayın.**

1. Əsəd həmişə düzgün ... → danışır /danışmır.
2. Vətən öz igid oğullarını ... → unudar / unutmaz.
3. Bu maraqlı işi bütün uşaqlar ... → bəyəndi / bəyənmədi.
4. Ləman bilsə də, heç nə ... → deyəcək / deməyəcək.
5. O utandığından başını aşağı ... → saldı / salmadı.

**• Diqqət et •**

Lüğətlərdə feillər *-maq, -mək* şəkilçisi ilə verilir: *oxumaq, baxmaq.*

**Ç** **Feillərdən istifadə etməklə cümlələri tamamlayın.**

qonmaq | yerləşmək | yayılmaq | oxumaq

1. Aydın üçüncü sinifdə ............. .
2. Sinif otağımız ikinci mərtəbədə .............. .
3. Bağçadakı güllərin ətri hər tərəfə ................. .
4. Göyərçin yuvasına ................ .

LAYİHƏ

# AZƏRBAYCAN MUSİQİSİ

1 A **Hansı xalq mahnılarının və muğamların adını eşitmisiniz?**

## ÇAHARGAH ƏFSANƏSİ

Qədim zamanlarda Odlar yurdunda bir musiqiçi yaşayırdı. Onun mahnıları dillər əzbəri idi. Musiqiçinin sorağı hökmdara da çatır. Hökmdar onu yanına çağırtdıraraq deyir:

– Gəl mənim sarayımda yaşa. Mənim şərəfimə mahnılar qoş. Razı olsan, qızıl içində üzəcəksən.

Musiqiçi deyir:

– Hökmdar sağ olsun, mən xalqımdan ayrı düşsəm, heç nə yazıb-yarada bilmərəm.

Bu cavab hökmdarı çox qəzəbləndirir. Musiqiçini zindana saldırır, ona ağır cəza verməyi qərara alır.

Padşahın bir ağıllı vəziri vardı. O, musiqiçinin istedadına heyran idi. Onun cəzalandırılmasını istəmirdi. Vəzir gizlicə musiqiçinin yanına gəlib deyir:

– Sağ qalmaq istəyirsənsə, gərək ölkəni tez tərk eləyəsən. Mən səni buradan çıxardaram.

Vəzir musiqiçini arxa qapıdan çıxarır. Ona deyir ki, keşikçilər duyuq düşməmiş tez şəhəri tərk eləsin. Yoxsa hökmdar xəbər tuta bilər.

**•Söz boğçası•**
- cah-calal
- duyuq düşmək
- karvanbaşı
- zınqırov
- ecazkar
- ləhləmək
- mənzilbaşı



LAYİHƏ

Musiqiçi şəhərdən çıxıb xeyli yol gedir. Səhrada bir karvanla qarşılaşır. Aydın olur ki, karvan yolu azıb. İstidən və susuzluqdan dəvələr ləhləyirdilər. Musiqiçi düşünür ki, karvanla yola davam etsə, daha təhlükəsiz olar. Amma dəvələr tərpənmək bilmirdi.

Birdən musiqiçinin gözü dəvələrin boynundakı zınqırovlara sataşır. Dəvələr başlarını tərpətdikcə zınqırovlardan qarma-qarışıq səslər gəlirdi. O, dəvələrə yaxınlaşır. Onların zınqırovlarını bir-bir çıxarıb dəyişir. Bəzi zınqırovları tarım, bəzilərini boş bağlayır. Bir neçə dəvənin boynundan zınqırovu açıb başqalarına ikisini asır.

Dəvələr tərpəndikcə ətrafa çox ecazkar bir musiqi yayılır. Dəvələr həvəslə yollarına davam edirlər. Musiqiçi də bir dəvəyə minir.



Karvandakılar musiqini dinləyə-dinləyə bir də ayılırlar ki, karvan gəlib mənzilbaşına çatıb.

Yaranan bu ecazkar musiqi sonradan Çahargah adı ilə məşhur olur.

## Nə anladın?

**B** **Mətnə aid suallara cavab verin.**

1. Musiqiçi niyə hökmdarın təklifini qəbul etmədi?
2. Nə üçün vəzir musiqiçini xilas etdi?
3. Vəzir musiqiçiyə necə kömək etdi?
4. Karvan hansı çətinliklə üzləşmişdi?
5. Ecazkar musiqi necə yarandı?

## Düşün və cavab ver

**C** **Sizcə, karvanda dəvələrin boynuna zınqırovlar nə məqsədlə asılır?**

**Ç** **Hansı epizoddan mətnin əfsanə olduğunu demək mümkündür?**

**D** **“Muğamlarımız” mətnini dinləyin. Aşağıdakı cədvələ uyğun faktları qeyd edin.**

| Muğam adları | Muğam ifaçıları | Milli musiqi alətləri |
|---|---|---|
| | | |

LAYİHƏ

**2 A** **Aşağıdakı cümlələrdə “ayaq” sözünün mənasını izah edin.**

*1. Ramilin **ayağı** əzildi.   2. Stolun **ayağı** təmir olundu.*





*Sizcə, “ayaq” sözünün hansı mənası əvvəl yaranmışdır?*

**• Yadda saxla • SÖZÜN HƏQİQİ VƏ MƏCAZİ MƏNASI**

Sözün əvvəl yaranmış mənası onun *həqiqi* mənasıdır:
**Baş** – insan və ya heyvan bədəninin yuxarı hissəsi. *Dəvənin başı.*

Bənzətmə əsasında sonradan yaranmış məna isə onun *məcazi* mənasıdır:
**Baş** – vəzifəcə böyük olan, rəhbər. *Baş həkim.*

**B** **Cümlələri oxuyun. Məcazi mənalı söz işlənən cümlələri müəyyən edin.**

1 **a.** Qapının **ağzı** təmiz idi.   **b.** İtin **ağzında** sümük var idi.

2 **a.** Uşağın **boğazı** ağrıyırdı.  **b.** Çəkmənin **boğazı** enli idi.

3 **a. Dəmir** darvaza köhnəlmişdi.  **b.** Arifin **dəmir** iradəsi var.

4 **a.** Pişik **dərin** quyuya düşmüşdü.  **b.** Baba **dərin** fikrə getdi.

**C** **Verilmiş sözlərin lüğətdəki izahlarından məcazi mənanı seçin.**

| Söz | Məna | Nümunə |
|---|---|---|
| **Yumşaq** | 1. Bərk olmayan | *Yumşaq yastıq* |
| | 2. Xoş, mülayim | *Yumşaq xasiyyət* |
| **Qızıl** | 1. Sarı rəngli qiymətli metal | *Qızıl üzük* |
| | 2. Çox dəyərli, çox gözəl | *Qızıl əllər* |

**Ç** **Nöqtələrin yerinə elə söz yazın ki, cümlədəki feil məcazi məna ifadə etsin.**

**• Nümunə •** *Vaxt uçur.*

1. ... uçur. *(quş / vaxt)*
2. ... pıçıldaşırdı. *(yarpaqlar / uşaqlar)*
3. ... yazın gəlişinə sevinir. *(insan / təbiət)*
4. ... qaynayır. *(çaydan / həyət)*
5. ... bizi çağırır. *(vətən / müəllim)*

LAYİHƏ

## Dil qaydaları

**3 A** **Cümlələrdə işlənmiş feillərin sonunda şəkilçilərin dəyişməsinə diqqət edin. Sizcə, bu dəyişmənin səbəbi nədir?**

1. Mən kitab oxuyur**am**. 2. Biz kitab oxuyur**uq**. 3. Siz kitab oxuyur**sunuz**.

• Bunları bilməliyik • **FEİLİN ŞƏXSƏ GÖRƏ DƏYİŞMƏSİ**

Hərəkəti icra edən şəxsdən (*mən, sən, o* və s.) asılı olaraq feillər müəyyən şəkilçilər qəbul edir.

| | ŞƏXS ƏVƏZLİKLƏRİ | |
|---|---|---|
| | **Tək** | **Cəm** |
| *I şəxs* | *Mən yazır**am**.* | *Biz yazır**ıq**.* |
| *II şəxs* | *Sən yazır**san**.* | *Siz yazır**sınız**.* |
| *III şəxs* | *O yazır.* | *Onlar yazır**lar**.* |

**B** **Uyğunluğu müəyyən edin.**

1. Mən
2. Sən
3. O

a. gəzdin.
b. gəzdi.
c. gəzdim.

1. Biz
2. Siz
3. Onlar

a. gəzdilər.
b. gəzdik.
c. gəzdiniz.

**C** **Nöqtələrin yerinə uyğun şəxs əvəzliklərini artırmaqla cümlələri köçürün.**

1. Yay aylarında ... doğma kəndimizdə dincəlirik.
2. ... bu gün dərslərini oxuyub qurtarandan sonra bizə gələrsən.
3. Adətən, ... istirahət günləri görüşürlər.
4. Ev işlərində ... anama kömək edirəm.
5. Həmişə ən maraqlı işi ... təqdim edirsiniz.
6. Axır zamanlar ..., dərslərdə fəallıq göstərir.

**Ç** **Hər bir cümlənin sonunda verilmiş feilə uyğun şəkilçi artırmaqla cümlələri tamamlayın.**

1. Biz müəllimin izahlarını diqqətlə ... *(dinləmək)*.
2. Boş vaxtım olanda mən kitab ... *(oxumaq)*.
3. Sən həmişəki kimi ədalətli ... *(danışmaq)*.
4. O öz çalışqanlığı ilə hər zaman hamıdan ... *(seçilmək)*.
5. Onlar bütün problemlərin həllində yaxından ... *(iştirak etmək)*.
6. Siz Vətənin torpaqlarını göz bəbəyi kimi ... *(qorumaq)*.

LAYİHƏ

fəsil 4

# QIZ QALASI

**1 A Bakıda yerləşən Qız qalası haqqında bildiklərinizi danışın. Sizcə, o nə üçün belə adlanır?**

**ODLAR QIZI** Qədim zamanlarda Abşeron torpağında bir şəhər vardı. Bu şəhərin əhalisi oda inanır, onu müqəddəs sayırdı. Şəhərin kənarında, dəniz sahilində bir qala ucalırdı. Yerin odlu nəfəsi yuxarı qalxır, qalanın başında alovlanıb yanırdı. Şəhərə yaxınlaşan hər bir gəmiçi onu uzaqdan görürdü.

Odlar yurdunun zəngin təbii sərvətləri vardı. Acgöz düşmən tez-tez bu torpağa tamah salırdı. Qəhrəman şəhər əhalisi isə bu basqınların qarşısını mərdliklə alırdı.

Günlərin birində güclü bir sərkərdə öz qoşunu ilə şəhərə hücum edir. Şəhəri doxsan gün mühasirədə saxlayır. Şəhər əhalisi düşmənə sinə gərir, təslim olmurdu.

Bir gün yurdun ağsaqqalı qalanın qarşısına gəlir. İnsanlara səslənib deyir:

– Odlar yurdumun mərd övladları, sizin mübarizliyiniz və vətən sevginiz diyarımızı məhv olmağa qoymaz! Biz mütləq qalib gələcəyik.

Sonra o, üzünü qalanın başında yüksələn alova tutub dua edir:

– Ey Od tanrısı, bizi bu bəladan xilas et!

Elə bu zaman qalanın başından möhkəm uğultu qopur. İnsanlar gözlərini qaladan yüksələn alova zilləyirlər. Onlar gördüklərinə heyrət edirlər. Alov gözəl bir qıza dönmüşdü. Onun əlində mavi alovdan qılınc vardı. Qızıl kimi parıldayan saçları çiyinlərinə tökülmüşdü. Gözlərindən hər tərəfə alov saçılırdı. Bu, intiqam alovu idi. Camaat nəfəs çəkmədən bu canlı alovu seyr edirdi.



**Söz boğçası**

• intiqam • pərən-pərən düşmək • saçmaq

LAYİHƏ



Bu vaxt ağsaqqal üzünü insanlara tutub deyir:

– Bu odlar qızı torpağımızın xilaskarıdır. Onun od nəfəsi düşməni yandıracaq.

Odlar qızı alov saça-saça düşmənin düşərgəsinə yollanır. Onu görən düşmən ordusu pərən-pərən düşür. Heç kim qızın qarşısına çıxa bilmir. Düşmən vahimə içində şəhəri tərk edir. Beləliklə, Odlar yurdu bəladan xilas olur.

O gündən bu qala "Qız qalası" adlanır.

## Nə anladın?

**B** **Mətndə hansı suallara cavab yoxdur?**
1. Şəhərə tez-tez olunan hücumun səbəbi nə idi?
2. Düşmən tərəfi nə qədər itki verdi?
3. Şəhər neçə ay mühasirədə qaldı?
4. İlk dəfə qalanı kim "Qız qalası" adlandırdı?

**C** **Mətndəki əsas problem nə idi və bu problem necə həll olundu?**

## Düşün və cavab ver

**Ç** **Mətnin birinci abzasındakı hansı cümlə aşağıdakı fikri təsdiq edir?**
*Qədimdə Qız qalası mayak rolu oynayırdı.*

**D** **"Odlar qızı" mətninin əfsanə olduğunu əsaslandırın.**

**E** **Mətndəki hadisələrin ardıcıllığını müəyyən edin.**
1. Alovun qıza çevrilməsi
2. Dəniz sahilində od saçan qala
3. Düşmənin şəhərə hücumu
4. Qızın şəhəri xilas etməsi

LAYİHƏ

## 2 A Qeyd götürməklə mətni oxuyun.

**QIZ QALASI** Azərbaycan qədim tarixi abidələrlə zəngindir. Bunların arasında ən məşhuru ölkənin simvollarından biri olan Qız qalasıdır.

Qız qalası Bakıda – dənizə yaxın ərazidə yerləşir. Qalanın hündürlüyü 28 metrdir. Qala səkkiz mərtəbədən ibarətdir.

Qız qalası sirli abidədir. Onunla bağlı bir sıra sualların dəqiq cavabı hələ də yoxdur. Məsələn, bu dairəvi qalaya bitişik enli divar haqqında müxtəlif fikirlər var. Bəzi alimlər onu tikili üçün dayaq hesab edirlər. Bəziləri isə gizli xəzinə yeri olduğunu düşünürlər.

Divarın üzərindəki bir yazıya görə qala 12-ci əsrə aid edilir. Lakin qalanın 3000 il yaşı olduğunu deyənlər də var.

Qız qalasının əvvəl atəşpərəstlərin* məbədi kimi tikildiyi, sonradan isə müdafiə məqsədi üçün istifadə edildiyi güman edilir. Qız qalası dünyanın qorunan abidələri sırasına daxildir.



*__Atəşpərəst__ – oda inanan, onu müqəddəs sayan insan.

**B** **Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırın.**

**C** **Aşağıdakı məlumatların fakt, yoxsa mülahizə olduğunu müəyyən edin.**

1. Qız qalasının hündürlüyü 28 metrdir.
2. Qala səkkiz mərtəbədən ibarətdir.
3. Dairəvi qalaya bitişik enli divar dayaq rolunu oynayır.
4. Qız qalası 12-ci əsrin abidəsidir.
5. Qalanın 3000 il yaşı var.
6. Qız qalası atəşpərəstlərin müqəddəs yeri olub.

## Yaradıcı iş

**Ç** **Mətndəki faktlardan istifadə etməklə Qız qalası haqqında yaddaş xəritəsi hazırlayın.**

LAYİHƏ

## Dil qaydaları

**3 A** **Cümlələrdə işlənmiş feillərə sual verin. Sizcə, hansı hadisə artıq baş verib, indi baş verir və hələ baş verməyib?**

1. Dərs başlandı. 2. Su donmuşdur. 3. Şəhərimiz günü-gündən gözəlləşir. 4. Səma gəzintiyə gedəcək. 5. Bu gün məktəbdə görüşərik.

• Bunları bilməliyik • **FEİLİN ZAMANLARI**

Feilin ifadə etdiyi hərəkət **keçmişdə**, **indi** və **gələcəkdə** baş verə bilər.

| KEÇMİŞ ZAMAN | İNDİKİ ZAMAN | GƏLƏCƏK ZAMAN |
|---|---|---|
| *al**dı**, bil**di**, yu**du**, üz**dü**, al**mış**dır, bil**miş**dir, yu**muş**dur, üz**müş**dür* | *al**ır**, bil**ir**, yu**yur**, üz**ür*** | *al**acaq**, bil**əcək**, al**ar**, bil**ər*** |
| *nə etdi? nə etmişdir?* | *nə edir?* | *nə edəcək? nə edər?* |

**B** **Cümlələrdəki feillərin hansı zamana aid olduğunu müəyyən edin.**

1. Uşaqlar həyətdə futbol oynayırlar.
2. Yayda kəndimizə gedəcəyik.
3. Qələbə xəbəri hər tərəfə yayıldı.
4. Bütün ailə ekrana yaxın əyləşdi.
5. Bu məsələ barədə dərsdən sonra danışarıq.
6. Mən sabahkı imtahana yaxşı hazırlaşmışam.
7. Sən dostun üçün hədiyyə seçirsən?

**C** **Verilmiş feilləri hər üç zamanda cümlədə işlədib yazın.**

*oxumaq* | *qorumaq* | *çalışmaq* | *uçmaq*

**Ç** **Cümlələrdəki feillərin zamanını müəyyən edin. Bu feilləri mötərizədə verilmiş zamana uyğun dəyişin.**

• Nümunə • *Ana hamıya çay süzür.* ***(keçmiş zaman)***
*Ana hamıya çay süzdü.*

1. Aqşin dərsə gecikdi. *(indiki zaman)*
2. Dostlarım bizə qonaq gəldilər. *(gələcək zaman)*
3. Bağban ağacları suladı. *(gələcək zaman)*
4. Əli babasına məktub yazır. *(keçmiş zaman)*

LAYİHƏ

# AZƏRBAYCAN QALALARI

## 1 A Sizcə, qədimdə qalalar hansı məqsədlə tikilirdi?

**QALALARIMIZ** Azərbaycanda çoxlu qalalar var. Bu qalaların əksəriyyəti hündür qayalıqlarda, dağların zirvəsində salınıb. Düşmən təhlükəsi yarananda yurdun ahılları, qız-gəlinləri, körpələri bu qalalarda qorunublar.



Gələrsən-görərsən qalasının qalıqları (Şəki)

Xalq arasında qalalar, onların adları ilə bağlı müxtəlif əhvalatlar söylənilir.

Deyilənə görə, Nadir şah Azərbaycanda hökmranlıq edən zaman Şəki əhalisi onun əmrlərinə tabe olmaq istəmir. Buna görə də Nadir şah Şəkiyə böyük bir qoşun yeridir. Şəki xanı camaatı dağın başındakı qalaya yığır. Qoşun qalaya yaxınlaşmaq istəyəndə əhali onların başına çay daşları, qatran yağdırır. Nadir şah qalanı bir neçə gün mühasirədə saxlaya bilir. Lakin Şəki camaatını diz çökdürə bilmir. İşi belə görən şah qalaya yaxınlaşır və qəzəblə qışqırır:

– Bu qalanın sirri nədir? Necə qaladır ki, onu almaq olmur?

Bu zaman qaladan gələn səs qayalarda əks-səda verir:

– Gələrsən, görərsən!

Deyilənə görə, o vaxtdan bu qala “Gələrsən-görərsən” adlanır.

**•Söz boğçası•**

- qatran
- əzəmətli
- sıldırım

Azərbaycanın qeyri-adi qalalarından biri də Zaqatala rayonunda yerləşir. Bu qalanı tikmək üçün qayanı çapıb oyuq açıblar.



Pəri qalasının qalıqları (Zaqatala)

Rəvayətə görə, qalaya Pəri adlı qız başçılıq edirmiş. Bir çox sərkərdələr bu qalanı ələ keçirmək istəyirmişlər. Amma qala sıldırım qayalıqda yerləşdiyi üçün bu, mümkün olmurmuş.

Günlərin birində Teymurləng bu alınmaz qalaya hücum edir. Pəri xeyli müqavimət göstərir, amma görür ki, düşmən çox güclüdür. O, əsir düşəcəyindən qorxur. Ona görə də özünü qaladan atır.

Həmin gündən qalanı “Pəri qalası” adlandırırlar.

LAYİHƏ



Qalalar Azərbaycanda çox tarixi hadisələrin şahidi olub. Bu qalalarda görkəmli tarixi şəxsiyyətlər yaşayıblar. Tariximizi unutmamaq üçün qalalarımızı qorumalıyıq!

## Nə anladın?

**B** **Mətnə görə doğru fikirləri müəyyən edin.**

1. Gələrsən-görərsən qalası Zaqatala rayonunda yerləşir.
2. Pəri qalasının başçısı mərd və cəsarətli xanım idi.
3. Nadir şah şəkililəri təslim olmağa məcbur etdi.
4. Qalaların adının yaranması müəyyən əhvalatlarla bağlıdır.
5. Qədimdə qalalardan müdafiə məqsədilə istifadə olunurdu.

**C** **Mətnin girişində və sonluğunda verilən məlumatlar hansı qalaya aiddir? Cavabınızı əsaslandırın.**

A) Gələrsən-görərsən qalasına  B) Pəri qalasına  C) hər iki qalaya

**Ç** **Mətndəki məlumatlardan və şəkillərdən istifadə etməklə qalaları təsvir edin.**





## Düşün və cavab ver

**D** **Keçmiş zamanda qalaların tikintisini göz önündə canlandırın. Bu zaman insanlar hansı çətinliklərlə üzləşə bilərdilər?**

LAYİHƏ

**2 A** “Qalalarımız” mətnində hansı tarixi şəxsiyyətlərin adları çəkilir?

**B** Məlumat vərəqlərini oxuyun.

**NADİR ŞAH**



**Doğum tarixi:** 1689-cu il
**Ölüm tarixi:** 1747-ci il
**Hökmranlıq etdiyi dövlət:** Əfşarlar
**Hökmranlıq illəri:** 1736-1747-ci illər
**Əlavə məlumatlar**: Xorasanda, sadə bir ailədə doğulub. Ana dili türk dili olub. Böyük sərkərdə kimi şöhrət qazanıb. Hindistanı, Əfqanıstanı da işğal edərək böyük dövlət yaradıb.

**ƏMİR TEYMUR**



**Doğum tarixi:** 1336-cı il
**Ölüm tarixi:** 1405-ci il
**Hökmdarlıq etdiyi dövlət:** Teymurilər
**Hökmranlıq illəri:** 1370-1405-ci illər
**Əlavə məlumatlar**: Türk, fars, ərəb dillərini bilib. Bir çox ölkələri fəth edib. Döyüşlərin birində ayağından yaralanıb. Bundan sonra ömrünün sonuna qədər axsayıb. Ona görə də “Teymurləng” ləqəbi ilə məşhurlaşıb.

**C** **Yuxarıdakı məlumatlardan istifadə etməklə aşağıdakı suallara cavab tapın.**

1. Hansı hökmdar əvvəl yaşayıb: Nadir şah, yoxsa Əmir Teymur?
2. Nadir şah neçə yaşında hökmdar olub?
3. Nadir şah neçə il hökmdarlıq edib?
4. Əmir Teymur neçə il yaşayıb?

**Ç** **Qruplarla iş**

**Məlumat vərəqlərindən istifadə etməklə “Qalalarımız” mətnini genişləndirib nəql edin.**

**I qrup** Gələrsən-görərsən qalası

**II qrup** Pəri qalası

LAYİHƏ

**3 A** **Bu bölmədə oxuduğunuz hansı mətndə möcüzəli hadisəyə rast gəlinmir?**

A) Aldədə əfsanəsi B) Qalalarımız C) Odlar qızı

• Yadda saxla • **RƏVAYƏT**

**Rəvayətdə** hər hansı tarixi yer və ya şəxsiyyətin adı çəkilir. Əfsanədən fərqli olaraq, bu mətnlərdə möcüzəli əhvalatlar olmur.
Rəvayətlərdə çox zaman "Deyilənə görə", "Rəvayətə görə" sözləri işlədilir.

**B** **Mətnləri oxuyun. Onlardan hansı rəvayətdir?**

**1** Bir gün Əmir Teymur qoşunu ilə hərbi yürüşə çıxır. Gəlib bir şəhərin yanında düşərgə salır. Şəhər hakiminə xəbər göndərir ki, təslim olsun.

Deyilənə görə, şəhər hakimi müdrik adam imiş. O özü ilə hədiyyə olaraq səkkiz qul götürüb Teymurun hüzuruna gəlir.

Keçmişdə türklər hədiyyə aparanda hər şeydən doqquz ədəd verərmişlər. Ona görə də Teymur təəccüblə soruşur:

– Niyə səkkiz qul gətirmisən?

Şəhər hakimi cavab verir:

– Doqquzuncu mən özüməm.

Bu cavab Teymurun çox xoşuna gəlir. O, şəhərə toxunmayıb yoluna davam edir.

**2** 1402-ci ildə Ankara yaxınlığında Osmanlı sultanı ilə Əmir Teymur arasında döyüş olmuşdur. Döyüşdən əvvəl Əmir Teymur sultana məktub yazıb təslim olmağı tələb edir. Sultan isə ona rədd cavabı verir. Onlar razılığa gələ bilmirlər.

Ağır döyüş başlayır. Əmir Teymurun ordusu sayca çox olur. Buna görə sultan davam gətirə bilmir. O, geri çəkilməyə məcbur olur. Beləcə, Ankara döyüşü Əmir Teymurun qələbəsi ilə başa çatır.

**C** **Qeydlər götürməklə "Brilyant qaşlı üzük" mətnini dinləyin. Bu mətnin rəvayət olduğunu əsaslandırın.**

LAYİHƏ

## Dil qaydaları

**4 A** **Cümlələrdə *yazmaq* feilindəki şəkilçilərə diqqət edin. Hər bir cümlədə feilin zamanını və şəxsini müəyyən edin.**

*1. Mən məktub yazdım. 2. Sən məktub yazırsan. 3. O, məktub yazacaq.*

**• Bunları bilməliyik •** **FEİLİN ŞƏXSƏ VƏ ZAMANA GÖRƏ DƏYİŞMƏSİ**

Hərəkəti icra edən **şəxsdən** (*mən, sən, o* və s.) və **zamandan** (keçmiş, indiki, gələcək) asılı olaraq feillər müəyyən şəkilçilər qəbul edir. Bu zaman feilə əvvəlcə zaman, sonra şəxs şəkilçisi qoşulur.

ç a l ı ş ı r s ı n ı z

*sözün kökü* (çalış) — *zaman şəkilçisi* (ır) — *şəxs şəkilçisi* (sınız)

Feil 3-cü şəxsin təkinə aid olanda şəxs şəkilçisi qəbul etmir: *çalışır, çalışdı, çalışar.*

**B** **Cümlələrdəki feillərin hansı zamana aid olduğunu müəyyən edin. Zaman şəkilçilərinin altından xətt çəkməklə cümlələri köçürün.**

**• Nümunə •** *Onlar kitabxanaya getdilər. (keçmiş zaman)*

1. *Onlar kitabxanaya getdilər.*
2. *Sən bu işi bacaracaqsan.*
3. *Mən babamı çox istəyirəm.*
4. *Siz bu xəbərə çox sevinəcəksiniz.*
5. *O, səbirlə hamını dinlədi.*
6. *Biz sizi axşam yeməyinə gözləyirik.*

**C** **Verilmiş feillərdə şəxs şəkilçisini müəyyən edin. Hərəkətin hansı şəxsə aid olduğunu deyin.**

*böldük, cücərdi, büdrədim, bişirirsən, buraxdılar, bilərsiniz, bəyənirik, xoşladın, başləyirlər, çağıracağıq, oxudunuz, çaşıram, calayarsan*

**Ç** **Nümunəyə əsasən cədvəl tərtib edin. Verilmiş feillər əsasında cədvəli doldurun.**

*dağıdacaqlar, inanmışıq, dərdi, dayandıq, güvənirəm, dəyişdiniz, istədim*

| feil | zaman | şəxs |
|---|---|---|
| çalırsınız | *indiki zaman* | *2-ci şəxsin cəmi* |
| | | |

**D** ***Qaçmaq, susmaq, görüşmək*** **feillərini şəxsə və zamana görə dəyişin.**

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**A** **Cümlələri oxuyun. Fərqləndirilmiş sözlərin həqiqi və ya məcazi mənada işləndiyini müəyyən edin.**

1. Məktəbin **daş** hasarı var.
2. Şalvarın **ayağı** qırışmışdı.
3. Bulağın **gözü** tutulmuşdu.
4. **Polad** balta çox iti idi.
5. Darağın **dişi** qırılmışdı.
6. Qapının **ağzı** palçıq idi.
7. Babək **qolunu** uzatdı.
8. **Daş** ürəkdə insaf olmaz.
9. Şamilin **ayağı** sürüşdü.
10. Gülayın **gözü** qamaşdı.
11. Onun **polad** iradəsi var.
12. Əlinin **dişi** ağrıyırdı.
13. Uşaq **ağzını** açdı.
14. Kürün ən böyük **qolu** Arazdır.

**B** **Mətndə işlənmiş əvəzliklərin hansı sözləri əvəz etdiyini müəyyən edin.**

*Qar yağırdı. Uşaqlar həyətə düşdülər. Onlar qaradamı düzəltdilər. Amma ona burun qoya bilmədilər. Çünki kökü tapmadılar. Onu Ziya yemişdi. Uşaqlar onu danladılar.*

*– Bağışlayın, mən bilmədim. İndi sizə kök gətirəcəyəm. Bunu deyib o, evə qaçdı.*

**C** **Feillərdəki səhvləri düzəldərək cümlələri köçürün.**

1. Biz heyvanları çox sevirsiniz.
2. Sən üçüncü sinifdə oxuyuram.
3. Siz tədbirdə çıxış edəcəklər.
4. Mən dərsə cavab verdin.
5. Onlar evdə dincəldik.
6. O hamıdan yaxşı cavab verdiniz.

**Ç** **Hansı cümlələrdə nöqtələrin yerinə həm təsdiq, həm də inkarda işlənmiş feillər yazmaq olar?**

1. Aydan kitabını heç kimə ... → *verdi / vermədi.*
2. Əli bu gün tapşırıqlarını ... → *yazdı / yazmadı.*
3. Orxanın papağı çox ... → *köhnəlmişdi / köhnəlməmişdi.*
4. Lalənin sözlərinə heç kim ... → *inandı / inanmadı.*

**D** **Aşağıdakı feilləri şəxsə və zamana görə dəyişərək cümlədə işlədin.**

*aparmaq* → *indiki zaman, 2-ci şəxsin təki*
*gülmək* → *keçmiş zaman, 3-cü şəxsin cəmi*
*baxmaq* → *gələcək zaman, 1-ci şəxsin cəmi*

LAYİHƏ

# 8 HİKMƏT XƏZİNƏSİ

**A** **Oxuduğunuz mətnləri xatırlayın. Bu əsərlərin ideyası haqqında danışın.**



*Yöndəmsiz timsah*



*Bir parça torpaq*




*Cəmil + Mahir*

**B** **Sizcə, xoşbəxtlik nədir? Xoşbəxt olmaq üçün insana daha çox nə lazımdır: sağlamlıq, yoxsa var-dövlət?**

## HƏYAT DƏRSİ

Bir gün cavan bir oğlan yolda müəllimini görür. Onunla hal-əhval tutandan sonra həyatından şikayətlənməyə başlayır:

– Müəllim, işlərim heç yaxşı deyil. Çox kasıb yaşayıram. Kaş ki mənim də var-dövlətim olaydı. Mən də yoldaşlarım kimi şən, firavan yaşayaydım.

Müdrik müəllim şagirdinin sözünü kəsib dedi:

– Sənin belə gileylənməyə haqqın çatmır. Sən ki böyük dövlət sahibisən!

Oğlan təəccübləndi.

– Mən dövlətliyəm? Hanı o dövlət?

– Sənin gözlərin. Sən bir gözünün əvəzinə nə almaq istərdin?

– Siz nə danışırsınız?! Mən gözümü heç bir xəzinəyə dəyişmərəm.

– Yaxşı, onda əllərinin əvəzində sənə çoxlu qızıl verərəm.



**Söz boğcası**

- firavan
- hikmət
- kəlam
- gileylənmək

LAYİHƏ

– Yox, mən əllərimi qızıla satmaram, – deyə oğlan cavab verdi.
Müəllim şagirdinə gülümsəyərək söylədi:
– İndi görürsən, necə dövlətlisən?! Sən sağlamsan, çalışqan olsan, hər şey əldə edə bilərsən.

**C** **Aşağıdakı fikirləri öz sözlərinizlə izah edin. Onlardan hansı mətnin ideyasını əks etdirir?**

A) Vaxtını düzgün bölsən, həm uğur, həm də sağlamlıq qazanarsan.
B) İnsan üçün ən böyük dövlət sağlamlıqdır.

• Yadda saxla • **HİKMƏT, KƏLAM**

"Hikmət" – *müdrik fikir* deməkdir. Ata-babalarımızın müdrik fikirləri yığcam cümlələr – kəlamlar şəklində bu günümüzə qədər gəlib çatmışdır. Bu fikirlər bir çox əsərlərin ideyasını təşkil edir.

**Ç** **"Şah və xidmətçi" mətnini dinləyin.**
**Aşağıdakı kəlamları mətndən çıxış edərək əsaslandırın.**

Quyuya salsan da yaxşılığı, bil,
Yenə qayıdacaq, o itən deyil.
Nizami Gəncəvi

Yaxşılıq edən yaxşılıq görər.
Atalar sözü



**D** **Qruplarla iş**

**Müəllimin təqdim etdiyi mətnləri oxuyun. Mətnlərdən çıxan ideyanı müəyyənləşdirin.**

1-ci qrup: Dəniz qorxusu
2-ci qrup: Qeybət
3-cü qrup: Otuz adam
4-cü qrup: Kimin nəyi varsa

LAYİHƏ

# ƏMƏKSEVƏRLİK

**1A** **Şəklə baxın. Obrazların zahiri görünüşünü təsvir edin. Şəkil həmin obrazlar haqqında hansı təsəvvür yaradır?**

## KƏRPİCKƏSƏN KİŞİNİN HEKAYƏTİ



Şam şəhərində qoca bir kişi yaşayırdı. Palçıqdan kərpic kəsib satmaqla dolanırdı. Qoca olsa da, çörəyini minnətsiz qazanırdı.

Qızmar bir yay günü idi. Kərpickəsən qoca tərini silə-silə palçıq qarışdırırdı. Bu zaman yoldan cavan bir oğlan keçirdi. O, qocanın necə əziyyət çəkdiyini görüb dedi:

– Ey qoca, sən niyə belə ağır zəhmətə qatlaşırsan? Yaşlı adamsan, özünə yazığın gəlsin. Bu qədər əziyyətin qabağında qazandığın bir qarın çörəkdir. O çörəyi kimdən istəsən, səndən əsirgəməz.

Qoca bir anlığa əl saxlayıb cavana baxdı. Bir qədər acıqlı səslə dedi:

– Deyirsən, özümə yazığım gəlsin?! Mən o zaman yazıq olaram ki, gəlib sənin qarşında bir parça çörək üçün əl açım! Bu əziyyəti ona görə çəkirəm ki, alnıaçıq, üzüağ yaşayım.

Qocanın sözləri cavana təsir etdi. O, dediklərindən peşman oldu. Şərəflə yaşayan bu qoca onun gözündə ucaldı. O, qoca kərpickəsənə ədəblə baş əydi və yoluna davam etdi.

*Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsəri əsasında işlənmişdir.*

**• Söz boğçası •**

- minnətsiz
- əsirgəmək
- alnıaçıq
- baş əymək
- əl açmaq
- üzüağ

**• Yadda saxla • HEKAYƏT**

**Hekayət** – hər hansı əxlaqi dəyər ifadə edən kiçikhəcmli əsərdir. Hekayət şeir formasında da olur.

LAYİHƏ

## Nə anladın?

**B** **Verilmiş misralar mətndəki hansı abzaslara uyğundur?**

*Onunçün öyrətdim ki əlimi bu sənətə,*
*Bir gün sənə əl açıb düşməyim xəcalətə.*
***
*Nə vaxtadək zəhmətlə daş, kəsək əzəcəksən?*
*Sudan, palçıqdan əldə nə hasil edəcəksən?*
***
*Toxuyardı özünə yaşıl otlardan köynək.*
*O, ruzi qazanardı hər gün kərpic kəsərək.*
***
*Dünyagörmüş adamdı söylədiyim bu qoca,*
*Öz işilə hamının gözündə oldu uca.*

*Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərindən*

## Düşün və cavab ver

**C** **Qoca kişi və cavan oğlanın davranışlarına münasibətinizi bildirin. Kişi haqlı idi, yoxsa oğlan? Fikrinizi əsaslandırın.**

**Ç** **Hansı fikir mətnin əsas ideyasını əks etdirir?**

A) Yaşlı insanlar çətin işlər görməməlidirlər.
B) İnsan öz zəhməti ilə yaşamalıdır.
C) Cavanlar yaşlı insanlara kömək etməlidirlər.

## Yaradıcı iş

**D** **Şəkillərə baxın. Şəkilaltı şərhləri genişləndirməklə hekayə yazın.**



*Qaranquş yuva qurmağa çalışır.*



*Oğlan çör-çöp gətirib qaranquşun yuvasına qoyur.*



*Qaranquş oğlanın gətirdiyi çöpləri kənara atır.*

- **Yazdığınız hekayənin ideyasını müəyyən edin.**
- **Hekayənizə ad verin.**

LAYİHƏ

**2 A** **“Kərpickəsən kişinin hekayəti” mətnindən nümunələr gətirməklə atalar sözünü izah edin.**

• Əmək insanı ucaldır.
• Zəhmətlə yeyilən acı soğan minnətlə yeyilən baldan şirindir.

**• Yadda saxla • Atalar sözləri**

Bir çox atalar sözlərində müdrik fikir birbaşa deyil, dolayısı ilə ifadə olunur. Məsələn, “Dəmiri isti-isti döyərlər” atalar sözü, əslində, belə bir fikir ifadə edir: *Problemi dərhal həll etmək lazımdır.*

**B** **Hansı atalar sözlərində fikir dolayısı ilə ifadə olunub? Seçiminizi əsaslandırın.**

1. Çəkilən zəhmət hədər getməz.
2. Sürüdən ayrılan qoyunu qurd yeyər.
3. Dost dostun eybini üzünə deyər.
4. Halva-halva deməklə ağız şirin olmaz.

**C** **Atalar sözlərində ifadə olunan fikri izah edin. Həmin fikirlə bağlı həyatdan nümunələr gətirin.**

1. Yüz ölç, bir biç.
2. Yalan ayaq tutar, yeriməz.
3. Doğru söz acı olar.
4. Ac toyuq yuxuda darı görər.

**Ç** **Atalar sözlərini tamamla.**

1. Könlü balıq istəyənin ...
2. Gülmə qonşuna, ...
3. Nə tökərsən aşına, ...
4. İstəyirsən bal-çörək, ...

a) ... al əlinə bel-kürək.
b) ... o da çıxar qaşığına.
c) ... ətəyi suda gərək.
ç) ... gələr başına.

**D** **Atalar sözlərində əksmənalı sözlərin yeri səhv düşüb. Həmin səhvləri müəyyən edin.**

1. Yaxşı günə səbir edən yaman günə tez çatar.
2. Qışda işlə, yayda dişlə.
3. Gündüzün xeyrindən axşamın şəri yaxşıdır.
4. Əkmək üçün biçmək lazımdır.
5. Vətən cənnət olsa da, yenə qürbət yaxşıdır.

LAYİHƏ

## Dil qaydaları SAMİTLƏRİN YAZILIŞI

**3 A Oxuyun. Cümlələrdə səhv yazılmış sözləri müəyyən edin. Öyrəndiyiniz qaydalardan çıxış edib fikrinizi əsaslandırın.**

1. Meşə çaqkalsız olmaz.
2. Beş barmaqın beşi də bir deyil.
3. Od olmasa, tüsdü çıxmaz.
4. Ağac bar verəndə başını aşağı dikər.

**B Dörd sözdən biri səhv yazılıb.**

| | | | |
|---|---|---|---|
| *A) saqqız* | *B) mütəkkə* | *C) sakqal* | *Ç) hoppanmaq* |
| *A) itki* | *B) şaftalı* | *C) asta* | *Ç) məksəd* |
| *A) gülünç* | *B) qəşəng* | *C) dörd* | *Ç) çəkic* |
| *A) çörəkdən* | *B) köməyi* | *C) kəpənəyə* | *Ç) çiyələkin* |
| *A) qayığın* | *B) soyuqdan* | *C) balığı* | *Ç) qaşıxda* |

**C Nöqtələrin yerinə uyğun hərflər artırıb cümlələri köçürün.**

1. Həkim xəs...əyə kömə... etdi.
2. Söyü... ağacı qurudu.
3. Sevin... dör... kita... aldı.
4. Səhən... su daşımaq üçündür.
5. Otağa tüs...ü doldu.
6. Xəs...ə həkimi çağırdı.
7. Qələmin mürək...əbi qurtardı.
8. Rə...qaslar yallı rə...si oynadılar.

**Ç Qruplarla iş**

**Sözlərin düzgün yazılışını müəyyən edin.**
**Hər bir cədvəlin hansı qaydanı əks etdirdiyini müəyyənləşdirin.**
**Cədvələ yeni sözlər əlavə etməklə plakatlar hazırlayın.**

| I qrup | | II qrup | | III qrup | | IV qrup | |
|---|---|---|---|---|---|---|---|
| Doğru | Yanlış | Doğru | Yanlış | Doğru | Yanlış | Doğru | Yanlış |
| kən... | kənt | sək...iz | səkgiz | nö...san | nöksan | qız...ar | qızdar |
| pələn... | pələnk | əlbət...ə | əlbətdə | dəs...ə | dəsdə | on...uq | onnuq |
| kərpi... | kərpiç | toq...a | toqka | həf...ə | həfdə | ətir...ər | ətirrər |
| təəccü... | təəccüp | top...uz | topbuz | seç...i | seçgi | duz...u | duzdu |

LAYİHƏ

•fəsil• 2•

# NƏSİHƏT

1 A **Hər hansı bir problemlə qarşılaşanda kimdən məsləhət alırsınız? Nəyə görə məhz həmin şəxsə müraciət edirsiniz? Sizcə, məsləhət vermək asandır, yoxsa ona əməl etmək?**

## RUMİNİN MƏSLƏHƏTİ

Keçmiş zamanlarda Cəlaləddin Rumi adlı müdrik bir şair var imiş. Hamı ona hörmət edər, onun məsləhətlərinə qulaq asarmış.

Bir gün qonşu qadın oğlu ilə onun yanına gəlib deyir:

– Şair, mənim oğlum həddən artıq şəkər yeyir. Nə qədər desəm də, xeyri yoxdur. Xahiş edirəm, siz ona deyin ki, çox şəkər yeməsin.

Şair başını aşağı salıb dedi:

– Gedin, iki həftədən sonra gələrsiniz.

Qadın xeyli təəccübləndi, bir az da incidi. Axı bir kəlmə demək nə böyük işdir ki...

İki həftədən sonra qadın oğlu ilə bir də gəldi. Rumi onlara dedi ki, bir həftə də gözləsinlər. Bu dəfə qadın dözmədi:

– Şair, axı sizdən böyük şey istəmirik...

– Gedin, gedin. Mən hələ məsləhət verməyə hazır deyiləm.

Qonşu qadın üçüncü dəfə oğlu ilə Ruminin yanına gəldi. Bu dəfə şair uşağa dedi:

– Oğlum, məsləhətimə qulaq as, çox şəkər yemə. Sağlamlığa ziyandır.

Uşaq: “Baş üstə, müəllim”, – deyib otaqdan çıxdı. Anası Rumiyə təşəkkür edib soruşdu:

– Siz Allah, iki kəlməyə görə nə üçün bizi bu qədər gözlətdiniz?

Rumi gülümsünüb dedi:

– Xanım, mən də uşaqlıqdan şəkərə aludəydim. Uşağa məsləhət vermək üçün gərək bu vərdişdən əl çəkəydim.



•Söz boğçası•

• nəsihət • aludə olmaq • əl çəkmək • vərdiş

## Nə anladın?

B **Mətnə əsasən suallara cavab verin.**

1. Qonşu qadın oğlunu nə üçün Ruminin yanına gətirmişdi?
2. Rumi nə üçün uşağa dərhal məsləhət vermədi?

LAYİHƏ

## Düşün və cavab ver

**C** **Uşaqla anası Rumidən məsləhət almaq üçün neçə gün gözlədilər?**

**Ç** **Hansı fikir mətnin ideyasına daha çox uyğun gəlir?**

A) Müdrik insanların sözünə əməl etmək lazımdır.
B) Başqalarına verdiyin məsləhətə əvvəlcə özün əməl etməlisən.
C) Şəkər yemək sağlamlığa ziyandır.

**D** **Aşağıdakı nəsihətləri oxuyun.**
**Fikirləri əsaslandırmaq üçün uyğun cümlələr artırın.**

• Nümunə •

*Hər kəsi görən zaman ona salam ver ki, hamı səni nəzakətli adam kimi tanısın.*

1. Bir adamı ehtiyac içində görəndə ona kömək et ki, ...
2. Yalan danışmaqdan çəkin. Çünki ...
3. Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki ...

*Abbasqulu ağa Bakıxanovdan*

• **Kitabınızı tərsinə tutun və nəsihətlərin davamını oxuyun. Öz fikrinizlə müqayisə edin.**

1. ... sənin bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin.
2. ... hər kəs sənin bu xasiyyətini bilsə, doğru sözünə də inanmaz.
3. ... onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz.

**E** **Qruplarla iş**

**Verilmiş mövzularda məsləhətlər düşünüb yazın.**
**Məsləhətlərinizdə atalar sözlərindən də istifadə edə bilərsiniz.**

1-ci qrup: Dostluq
2-ci qrup: Mərhəmət
3-cü qrup: Qənaətcillik
4-cü qrup: Dürüstlük

• Nümunə •

ÇALIŞQANLIQ – vaxtınızı faydasız işlərə xərcləməyin.
Başladığınız işi bitirməyə çalışın. Çox çalışmaq sizə yalnız xeyir gətirər.

LAYİHƏ

**2 A** **Verilmiş kəlamları oxuyub müqayisə edin.**

1. Səhvini üzünə deyən düşmən bunu gizlədən dostdan yaxşıdır.
*(Sokrat)*
2. Dost dostun eybini üzünə deyər.

**• Yadda saxla •** **AFORİZM**

Müdrik şəxslərin qısa, dərin mənalı fikirləri **aforizm** adlanır. Atalar sözlərindən fərqli olaraq aforizmlərin müəllifi məlumdur.

Məsələn: *Elmin açarı sual işarəsidir* (Balzak).

**B** **Aforizmlərlə atalar sözlərini ifadə olunan fikrə görə uyğunlaşdırın.**

| AFORİZMLƏR | ATALAR SÖZLƏRİ |
|---|---|
| 1 Sağlam olmaq istəyirsinizsə, heç vaxt doyunca yeməyin. *(Sədi Şirazi)* | a Bir əldə iki qarpız tutmaq olmaz. |
| 2 İki atı eyni zamanda sürə bilməzsiniz. *(Albert Eynşteyn)* | b Ağıl gücdən üstündür. |
| 3 Qüvvət elmdədir, başqa cür heç kəs<br>Heç kəsə üstünlük eyləyə bilməz. *(Nizami Gəncəvi)* | c Çox yemək adamı<br>az yeməkdən də qoyar. |

**C** **Verilmiş şeirdən hansı misraları aforizm kimi seçərdiniz? Seçiminizi əsaslandırın.**

**OĞLUM MƏHƏMMƏDƏ NƏSİHƏT**

Oğul, sözlərimə yaxşı qulaq as,
Ata nəsihəti faydasız olmaz:
Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək:
Bir insan əliboş gəzməsin gərək.
*(Nizami Gəncəvi)*

**Ç** **"Sərkərdə və qarışqa" mətnini dinləyin. Sərkərdənin başına gələn əhvalatdan nəticə çıxarıb aforizmlər yazın.**

LAYİHƏ

## Dil qaydaları **SÖZÜN TƏRKİBİ**

**3 A** **Aforizmi oxuyun. Suallara cavab verin.**

> Ağıllı düşmən axmaq dostdan yaxşıdır.
> *(Cəlaləddin Rumi)*

1. Cümlədə hansı sözlər yalnız kökdən ibarətdir?
2. Hansı şəkilçilər sözlər arasında əlaqə yaradır?
3. Hansı sözdəki şəkilçi yeni məna yaradır?

**B** **Doğru, yoxsa yanlış?**

1. "Odunçu" sözündəki şəkilçi yeni söz yaradır.
2. "Duzlu" sözünün kökü isimdir.
3. "Küçədə" sözündəki şəkilçi dörd cür yazılır.
4. "Qızılgül" mürəkkəb sözdür.
5. "Gecə" və "gündüz" sözlərindən yaranan mürəkkəb söz bitişik yazılır.

**C** **Cümləri köçürün. Hər bir sözün kökünün altından xətt çəkin.**

1. Dənizdə güclü fırtına başladı.
2. Yağış əsgərin paltarlarını islatdı.
3. Həkim otağın pəncərəsini açdı.
4. Uşaqlar bağçada gül əkdilər.

**Ç** **Nöqtələrin yerinə elə sözlər əlavə edin ki, tərkibində şəkilçi olsun.**

1. ... hər şeyi dörd görər. ⟶ tənbəl / qorxaq
2. Dostsuz adam ... ağac kimidir. ⟶ köksüz / tənha
3. ... əl nəyə dəysə, qızıl olar. ⟶ zirək / çalışqan
4. Xain dost ən ... düşməndir. ⟶ təhlükəli / qəddar

**D** **Verilmiş sözlərdən mürəkkəb sözlər düzəldin. Onların yazılış qaydasını müəyyən edib cədvəl üzrə qruplaşdırın.**

*1. ağac, dələn 2. göy, qurşağı 3. dərə, təpə 4. qaça, qaça 5. su, iti*
*6. dəvə, quşu 7. kağız, kuğuz 8. birdən, birə 9. tez, tez 10. gec, tez*

| Bitişik yazılan mürəkkəb sözlər | Defislə yazılan mürəkkəb sözlər |
|---|---|
| soyuqqanlı | az-çox |

LAYİHƏ

## 1 A Komandanın uğur qazanması üçün liderin hansı keyfiyyətləri olmalıdır?

**BİR DƏSTƏ GÖYƏRÇİN** Çəmənlikdə bir dəstə göyərçin uçuşurdu. Onların Alabaxta adlı bir başçısı vardı. Alabaxta çox müdrik, dünyagörmüş göyərçin idi. Başqa göyərçinlər həmişə onun məsləhətlərinə qulaq asar, hər əmrinə tabe olardılar.

Günlərin bir günü çəmənliyə bir ovçu gəldi. Yerə çoxlu dən səpdi, torunu qurub pusquda durdu.

Göyərçinlər uçarkən yerdə çoxlu dən gördülər. Tələdən xəbərsiz olan quşlar həmin yerə endilər. Yenicə dənləməyə başlamışdılar ki, ovçu torunu çəkdi. Göyərçinlərin hamısını tutdu. Quşlar torda çırpınmağa başladılar. Onlar öz canlarını qurtarmaq üçün çalışır, toru dimdikləyir, bir-birinin əl-ayağına dolaşırdılar.

İşi belə görən Alabaxta dedi:

– Sakit olun və məni dinləyin. Təklikdə heç birimiz tordan xilas ola bilməyəcəyik. Yaxşısı budur, gücümüzü bir yerə qoyaq, toru yerdən qoparıb özümüzlə aparaq.

Göyərçinlər Alabaxtanın dediyi kimi etdilər. Ovçu torla birlikdə göyə qalxan göyərçinləri görəndə çaşıb-qaldı. Amma fikirləşdi ki, quşlar uzaq gedə bilməzlər. Nə vaxtsa yorulub yerə qonacaqlar. Bu ümidlə göyərçinləri izləməyə başladı.

Alabaxta gördü ki, ovçu qarabaqara onları izləyir. Yoldaşlarına dedi:

– Bu insafsız bizdən əl çəkənə oxşamır. Gərək daha da sürətlə uçaq, onun gözündən itək.

– Axı biz yorulmuşuq, qanadlarımızı güclə tərpədirik, – deyə göyərçinlər ağız-ağıza verib səsləndilər.



**•Söz boğçası•**
• pusqu • kəsəyən

LAYİHƏ

– Özünüz seçin, hansı daha yaxşıdır: ovçuya yem olmaq, yoxsa iradəmizi toplayıb azadlığa çıxmaq?

– Əlbəttə, azadlıq yaxşıdır!

– Onda iradəli olun, gücünüzü toplayın, daha sürətlə uçun!

Azadlığa qovuşmaq istəyi göyərçinlərə güc verdi. Onlar tez bir zamanda gözdən itdilər. Alabaxtanın məsləhəti ilə Kəsəyənin yanına uçub ondan kömək istədilər. Kəsəyən toru dişləri ilə doğrayıb tökdü. Göyərçinlər azadlığa çıxdı. Alabaxta başlarına gələnləri Kəsəyənə danışdı. Kəsəyən onun ağlına, göyərçinlərin iradəsinə heyran qaldı.



## Nə anladın?

**B** **Mətnə əsasən suallara cavab verin.**

1. Göyərçinlər hansı problemlə üzləşmişdilər?
2. Nəyə görə göyərçinlər Alabaxtanı özlərinə başçı seçmişdilər?
3. Alabaxta göyərçinləri xilas etmək üçün onlara nə dedi?

## Düşün və cavab ver

**C** **Alabaxtanın hansı hərəkətləri onun lider olduğunu sübut edir?**

**Ç** **Sizcə, birlik olması üçün mütləq lider olmalıdırmı?**

**D** **Aşağıda mətnin ideyasını əks etdirən atalar sözləri verilmişdir. Sizcə, hansı atalar sözündə fikir birbaşa ifadə olunub?**

1. Tək əldən səs çıxmaz.
2. Güc birlikdədir.
3. El bir olsa, dağ oynadar yerindən.

LAYİHƏ

**2 A** **Aşağıdakı şeiri məzmun və obrazlar baxımından "Bir dəstə göyərçin" mətni ilə müqayisə edin.**

### SIĞIRÇIN VƏ GÖYƏRÇİN

Tələyə düşmüşdü bir gün Sığırçın,
Yazıq çırpınırdı xilas olmaqçün.
Gülürdü Göyərçin onun halına,
Lağ edirdi quşun çırpınmağına.
Deyirdi: – Bir utan, qızar işindən,
Tələyə düşmüsən gündüz vaxtı sən.
Bu sözü söyləyib bitirməmişdi,
Qəfildən özü də tora ilişdi.
Doğru deyiblər ki, gülmə qonşuna,
Vaxt olar, sənin də gələr başına.



*Mirmehdi Seyidzadə*

**• Diqqət et •** **TƏMSİL**

Təmsilin əsas obrazları heyvanlar və cansız varlıqlar olur. Bu obrazlar insana aid xüsusiyyətləri daşıyır. Müəllif təmsil vasitəsilə oxuculara ibrətamiz fikirlər çatdırır. Təmsil şeir və ya nağıl formasında yazılır.

**B** **Şəkillərə baxın və oxuduğunuz mətnləri xatırlayın. Onlardan hansılarını təmsil hesab etmək olar? Seçiminizi əsaslandırın.**









**C** **Qruplarla iş** **Müəllimin təqdim etdiyi təmsilləri oxuyun. Suallar əsasında təqdimat hazırlayın.**

I qrup: Siçan və Dəvə
II qrup: Ağıllı Qarışqa
III qrup: Ayı və Şir
IV qrup: Sincab və Balıq

1. Oxuduğunuz mətn hansı xüsusiyyətlərinə görə təmsil hesab olunur?
2. Təmsildə hansı mənfi xüsusiyyətlərdən danışılır?
3. Təmsildən hansı ibrətamiz nəticəyə gəlmək olar?

LAYİHƏ

## Dil qaydaları ƏSAS VƏ KÖMƏKÇİ SÖZLƏR

3 A **Cümlədəki sözləri cədvəl üzrə qruplaşdırın.**

Biz meşədə çoxlu nadir heyvan və quş gördük.

| isim | sifət | say | əvəzlik | feil | bağlayıcı |
|---|---|---|---|---|---|
| | | | | | |

B **Doğru, yoxsa yanlış?**

1. "Şəhər", "göl" sözləri ümumi isimlərdir.
2. "Beşinci" sözü nə qədər? sualına cavab verir.
3. "Biz" ikinci şəxsin cəmini bildirən əvəzlikdir.
4. "Xeyirxah", "ağıllı" sifətləri keyfiyyət bildirir.
5. "Və" , "amma", "çünki" sözləri anlayış ifadə etmir.
6. "Gəlmədi" və "oxumayacaq" feilləri inkardadır.

C **Cümlələrə *say, sifət, isim* əlavə etməklə genişləndirin.**

1. Ana aldı.
2. Müəllim söylədi.
3. Ramiz gətirdi.
4. Əsgər gördü.
5. Bağban dərdi.
6. Dərzi tikdi.

• Nümunə •

Şagird iki maraqlı kitab oxudu.

Ç **Cümlələrdəki köməkçi sözləri müəyyən edin.**

1. Ana çox sevinirdi, çünki oğlu yarışda qalib olmuşdu.
2. Rasimi və anasını qonaq çağırdım, ancaq gəlmədilər.
3. Mübariz ilə Fərid mərd və bacarıqlı əsgər olublar.
4. Arzu və Məlahət dərsdə iştirak etmirlər, çünki xəstədirlər.

D **Cütlərlə iş**

**Verilmiş xüsusiyyətlərə uyğun gələn sözləri müəyyən edin.**

1. İsimdir, ümumidir, konkretdir.
2. İsimdir, xüsusidir, hara? sualına cavab verir.
3. İsimdir, ümumidir, mücərrəddir.
4. Feildir, keçmiş zamandadır, inkardadır.
5. Feildir, indiki zamandadır, təsdiqdədir.
6. Feildir, gələcək zamandadır, təsdiqdədir.

a) Şəki
b) aparmadı
c) qaçır
ç) fikir
d) qələm
e) oxuyacaq

LAYİHƏ

# YUMOR VƏ HİKMƏT

**1 A Bildiyiniz bir gülməli əhvalat danışın.**
**Sizcə, bu əhvalatda gülüş doğuran nədir?**

## MOLLA İLƏ OĞLU

Bir gün Molla Nəsrəddin oğlunu yanına salıb eşşəklə gedirmiş. Yoldan keçənlər deyirlər:

– Buna bax! O boyda kişi özü eşşəyə minib, uşağı piyada aparır.

Molla eşşəkdən düşüb uşağı mindirir. Yol qırağında oturanlar bunu görüb lağ eləyirlər:

– Ağsaqqal kişiyə bax! Oğlanı mindirib eşşəyə, özü piyada gedir.

Belə olanda Molla eşşəyə minib uşağı tərkinə alır. Yenə də yoldan ötənlər qulp qoyurlar:

– Sən bir bunlara bax! İki yekə adam bir cansız eşşəyə minib.

Molla əlacsız qalıb uşaqla birlikdə eşşəkdən düşür. Piyada getməyə başlayırlar. Bunu görən yolçular gülüşürlər:

– Bunlar nə ağılsız adamlardır. Yanlarında eşşək ola-ola ikisi də piyada gedir.

Axırda Mollanın əlacı kəsilir, eşşəyi dalına alıb deyir:

– Hamıya qulaq assan, gərək eşşəyi dalına alasan.

**•Söz boğçası•**
- tərkinə almaq
- qulp qoymaq
- əlacı kəsilmək



## Nə anladın?

**B Mətndə neçə epizod var? Hansı epizod sizdə gülüş doğurdu?**

LAYİHƏ

## Düşün və cavab ver

**C** **Mətndə hansı cümlə əsas fikri ifadə edir? Həmin fikri başqa cür necə ifadə etmək olar?**

A) Uzaq yolu piyada getmək sağlamlığa faydalıdır.
B) Heyvanlarla mərhəmətli davranmaq lazımdır.
C) Başqalarının dediyi ilə oturub-durmaq olmaz.

• Yadda saxla • LƏTİFƏ

**Lətifə** – gülməli və məzəli əhvalat haqqında yığcam, qısa hekayədir. Lətifələrin əsas ideyası sonda aydınlaşır.
Lətifələr əyləndirmək məqsədi daşıyır. Lakin bu mətnlərdə çox zaman hikmətli fikirlər də ifadə olunur.

**Ç** **Lətifəni oxuyun. Lətifəyə aid xüsusiyyətləri əsaslandırın.**

### DİŞ AĞRISI

Mollanın dişi tez-tez ağrıyırmış. Həftələrlə üzünü-gözünü sarıyıb ufuldaya-ufuldaya gəzirmiş. Amma qorxudan həkimə getmirmiş.

Bir gün dostlarından birisi deyir:

– Ay Molla, bir diş çəkdirmək nədir ki, sən belə qorxursan? Əgər sənin o dişin mənim ağzımda olsaydı, mən elə bu saat gedib çəkdirərdim.

Molla deyir:

– Bu diş sənin ağzında olsaydı, elə mən də çəkdirərdim.

**D** **Hansı atalar sözü lətifənin ideyasını ifadə edir?**

1. Ağrımayan başa dəsmal bağlamazlar.
2. Ağrıyan dişi çəkmək gərək.
3. Bu canın o candan xəbəri olmaz.

## Araşdırma

**E** **Bir neçə lətifə öyrənin və ailə üzvlərinizə danışın.**

LAYİHƏ

**2 A** **Nöqtələrin yerinə elə cümlə seçib əlavə edin ki, lətifə yaransın.**

**1**
– Sən əlifbanı yaxşı bilirsən?
– Əlbəttə!
– Deyə bilərsən, A hərfindən sonra nə gəlir?
– ...

*a) B hərfi.*
*b) O biri hərflər.*

**2**
– Əli, de görüm, iki üstəgəl iki neçə edər?
– Dörd.
– Düzdür. Al, buna görə sənə dörd konfet verirəm.
– ...

*a) Axı mən konfet xoşlamıram.*
*b) Eh, gərək səkkiz deyərdim!*

**3**
– Saat neçədir?
– 6-nın yarısı.
– ...

*a) Daha de ki, üçdür də...*
*b) Saatım xarab olub ki!*

**4**
– İradə, mənə beş dənə ev heyvanı saya bilərsən?
– ...

*a) İnək, qoyun, keçi, toyuq, cücə.*
*b) Üç pişik və iki it.*

**B** **“Molla və qonşusu” lətifəsini dinləyin. Dinləyərkən müəllimin səs tonuna, istifadə etdiyi jest və mimikalara diqqət edin.**

**C** **Oxuduğunuz lətifələri aşağıdakı təlimata uyğun nəql edin. Bir-birinizin lətifə danışma bacarığını dəyərləndirin.**

**• Təlimat •**

1. Səs tonunuzu obrazların xarakterinə uyğunlaşdırın.
2. Müvafiq jest və mimikalardan istifadə edin.
3. Lətifənin sonluğunu bir qədər fərqli səsləndirin.

**Ç** **“Molla və qonşusu” lətifəsi əsasında tamaşa hazırlayın.**

LAYİHƏ

# Dil qaydaları SÖZ BİRLƏŞMƏSİ. CÜMLƏ

**3 A** **Oxuyun. Lətifədəki cümlələrlə bağlı suallara cavab verin.**

– Atacan, mənə tütək al.
– Yox, tütəyin səsi məni işləməyə qoymayacaq.
– Söz verirəm ki, yalnız sən yatanda çalacağam.

**1. Lətifədə neçə cümlə var?**
**2. Hansı cümlə əmr cümləsidir?**
**3. Mətndə neçə nəqli cümlə var?**
**4. Hansı cümlə mürəkkəb cümlədir?**

**B** **Uyğunluğu müəyyən edib söz birləşmələri düzəldin. Söz birləşmələrini cümlədə işlədib yazın.**

| | |
|---|---|
| bayram | fəsil |
| dadlı | xonça |
| yaz | kəpənəklər |
| rəngbərəng | paxlava |

| | |
|---|---|
| vətən | kitab |
| dəcəl | stol |
| qalın | sevgi |
| dairəvi | uşaq |

**C** **Mürəkkəb cümlələri seçin. Uyğun bağlayıcı əlavə etməklə həmin cümlələri köçürün.**

1. Evə çatanda yağış dayanmışdı, güclü külək davam edirdi.
2. Pəncərə taybatay açıldı, içəriyə soyuq hava doldu.
3. Dərsdən sonra Saleh, Vüqar, Rauf idman klubuna getdilər.
4. Şəhid atası abidənin önündə vüqarla dayanmışdı.
5. Qələbəyə çox sevinirdik, zəhmətimiz hədər getməmişdi.

**Ç** **Cümlələri tamamlayıb köçürün.**

1. Çox maraqlı oyun gedir, amma ... .
2. ..., çünki bu gün hava çox soyuq idi.
3. ... və Adil atasını köməyə çağırdı.
4. Həkim bir qədər gec gəldi, çünki ... .
5. ..., ona görə də uşaqlar əsgərlərə təşəkkür etdilər.

LAYİHƏ

fəsil 5

# MƏHARƏT

**1 A** **Özünüzü hansı işdə istedadlı, bacarıqlı hesab edirsiniz? Siz buna necə nail olmusunuz?**

## FİTNƏ

**I hissə** Bəhram şah mahir ovçu idi. Hər dəfə ovdan sonra öz şücaəti ilə öyünərdi. Şahın Fitnə adlı gözəl bir kənizi vardı. Bu qız heç vaxt Bəhram şahın ovçuluq məharətini tərifləməzdi. Səbəbini soruşanda isə deyərdi:

– Bu, sadəcə, bir vərdişdir. O qədər ov etmisən ki, artıq quşu gözündən vurmağa öyrəşmisən.

Bəhram şah Fitnəyə qəzəbləndi, sərkərdəni çağırıb əmr etdi ki, Fitnənin boynunu vursun.

Sərkərdə Fitnəni götürüb yola düzəldi. Fitnə öz ağlı və cəsarəti ilə sərkərdənin hörmətini qazanmışdı. Onun bu qızı öldürməyə əli gəlmirdi. Sərkərdənin pərişan halını görən Fitnə dedi:

– Nahaq yerə məni öldürmə. Onsuz da gec-tez şah verdiyi əmrə görə peşman olacaq. Onda sənə də acığı tutacaq. Onun yanına get. De ki, Fitnəni öldürdüm. Əgər bu xəbərdən kədərlənsə, deməli, peşmandır. Yox, əgər sevinsə, qayıt onun əmrini yerinə yetir.

Sərkərdə gördü ki, Fitnə ağıllı söz danışır. Ona görə də qızı öldürməkdən vaz keçib dedi:

– Amma bu sirri gərək heç kəs bilməsin.

O, Fitnəni evinə aparıb gizlətdi. Özü isə Bəhram şahın yanına qayıtdı.



**Söz boğçası**

- kəniz • məharət • vərdiş • öyünmək • pərişan

LAYİHƏ

Bəhram şah sərkərdəni görən kimi soruşdu:

– Nə oldu? Fitnəni öldürdünmü?

Sərkərdə dedi:

– Bəli, şahım, əmrini yerinə yetirdim.

Bəhramın gözləri yaşla doldu.

Sərkərdə başa düşdü ki, Fitnə haqlıdır. Şah hirsli vaxtında verdiyi əmrə görə peşmandır.

## Nə anladın?

**B** **Mətnlə bağlı sualları cavablandırın.**

1. Bəhram şah nə üçün Fitnəni öldürməyi əmr etdi?
2. Sərkərdə nə üçün Bəhram şahın əmrini yerinə yetirmədi?
3. Sərkərdə necə başa düşdü ki, Bəhram şah verdiyi əmrə peşman olub?

## Düşün və cavab ver

**C** **"Bəhramın ceyran ovlaması" epizoduna aid hissəni dinləyin. Bu epizod mətnin hansı hissəsinə uyğun gəlir?**



**Ç** **"Vərdiş" və "məharət" sözlərinin izahını oxuyun. Fitnənin Bəhram şaha dediyi sözləri şərh edin.**

***Vərdiş*** *– hər hansı işin, hərəkətin dəfələrlə təkrarlanması nəticəsində yaranan alışqanlıq.*
***Məharət*** *– uzunmüddətli məşqlər, vərdiş nəticəsində yaranan ustalıq, xüsusi qabiliyyət.*

**D** **Mətndəki hadisələrin davamını təxmin edin.**

LAYİHƏ

**2 A** **Mətnin davamını oxuyun. Öz təxmininizlə müqayisə edin.**

**II hissə** Sərkərdənin üçmərtəbəli gözəl bir imarəti var idi. Fitnə orada yaşamağa başladı.



Bir gün sərkərdənin naxırındakı inəklərdən biri balaladı. Təpəl buzov Fitnənin çox xoşuna gəldi. O hər gün buzovu boynuna alıb əzizləyə-əzizləyə üçüncü mərtəbəyə qaldırır, orada yedizdirir, sonra aşağı düşürürdü. Artıq buzov da Fitnəyə isinişmişdi. Fitnəni görən kimi onun qucağına qaçır, Fitnə də onu boynuna alıb yuxarı qaldırırdı. Aylar ötür, buzov danaya, dana öküzə çevrilirdi. Amma Fitnə hələ də onu üçüncü mərtəbəyə qaldırmağa davam edirdi.

Bir gün Fitnə sərkərdədən xahiş etdi ki, Bəhram şahı qonaq çağırsın. Sərkərdə Fitnənin niyyətini başa düşmüşdü. Odur ki onun sözünü yerə salmaq istəmədi.

Ertəsi gün Bəhram şah adamları ilə sərkərdənin evinə qonaq gəldi. Üçüncü mərtəbədə qonaqlıq süfrəsi açılmışdı. Qonaqlar yeyib-içəndən sonra sərkərdə şaha dedi:

– İmarətimdə gözəl bir qız yaşayır. Hər gün yekə bir öküzü boynunda bura çıxarır. Özü də birnəfəsə. Heç dincini də almır.

Bəhram şah bu sözlərə inanmadı. Sərkərdə Fitnəyə xəbər göndərdi ki, öküzü yuxarı qaldırsın.

Fitnə üzünə rübənd saldı. Öküzü boynuna alıb düz üçüncü mərtəbəyə qaldırdı. Gətirib Bəhram şahın qabağında yerə qoydu.

**• Söz boğçası •**

• təpəl • naxır • rübənd



LAYİHƏ

Bəhram şah üzünü sərkərdəyə tutub dedi:

– Bu, qızın güclü olmağından xəbər vermir. Görünür, bu öküz balaca olandan bu qız bu işə vərdiş edib.

Fitnə dedi:

– Çox qəribədir, deməli, öküzü qaldırmaq vərdişdəndir, amma ov ovlamaq məharətdən?

Bunu deyib qız rübəndi üzündən götürdü. Bəhram Fitnəni tanıdı. Sevimli kənizini sarayına gətirib onunla ailə qurdu. Sərkərdəyə isə qiymətli hədiyyələr bağışladı.

*Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında işlənmişdir.*

## Nə anladın?

**B** **Mətndən verilmiş cümlələri bir daha oxuyun. Suallara cavab verin.**

**1. Sərkərdə Fitnənin niyyətini başa düşmüşdü.**

SUAL Fitnənin niyyəti nə idi?

**2. Fitnə üzünə rübənd saldı.**

SUAL Fitnə nə üçün üzünə rübənd saldı?

**3. Bəhram şah sərkərdəyə qiymətli hədiyyələr bağışladı.**

SUAL Sərkərdəyə nə üçün qiymətli hədiyyələr bağışladı?

**C** **Atalar sözlərinin hansı obraza aid olduğunu müəyyən edin. Mətnə istinad etməklə atalar sözlərini şərh edin.**

1. Hirsli başda ağıl olmaz.
2. Dil var, bal gətirər, dil var – bəla.
3. Yaxşılıq edən yaxşılıq görər.

a) Sərkərdə
b) Bəhram şah
c) Fitnə

**Ç** **Yarımbaşlıqların ardıcıllığını müəyyənləşdirib mətni plan üzrə nəql edin.**

- Bəhram şahın Fitnəyə qəzəblənməsi
- Bəhram şahın ceyranı ovlaması
- Bəhram şahın peşman olması
- Bəhram şahın Fitnəni tanıması
- Sərkərdənin Bəhram şahı qonaq çağırması
- Sərkərdənin Fitnəni gizlətməsi

LAYİHƏ

# Ümumiləşdirici təkrar

**A** **Uyğunluğu müəyyən edin.**

1. Quş, ilan və xırda gəmiricilərlə qidalanan kiçik heyvan
2. Dənizdə yaşayan nəhəng yırtıcı heyvan
3. Afrikada yaşayan qalın dərili, nəhəng heyvan
4. Filə bənzəyən nəsli kəsilmiş çox iri heyvan

a 
*mamont*

b 
*manqust*

c 
*begemot*

ç 
*morj*

**B** **Cümlələri uyğun sözlərlə tamamlayın.**

fırtına, sel, sunami, vulkan, boran

1. ... çayların daşması nəticəsində baş verir.
2. Zəlzələ baş verdikdən sonra ... təhlükəsi yaranır.
3. ... dənizdə güclü dalğa yaradan dağıdıcı küləkdir.
4. Qar yağa-yağa güclü küləyin əsməsi ... adlanır.
5. Yerin altından odun, qazın püskürməsi ... hadisəsidir.

**C** **Göy rənglə verilmiş ifadələrin mənasını müəyyən edin.**

**1** *qanı qaralmaq*
a) xəstələnmək
b) bikef olmaq
c) həvəslənmək

**2** *duyuq düşmək*
a) unutmaq
b) yorulmaq
c) hiss etmək

**3** *ağzına su almaq*
a) su istəmək
b) susmaq
c) dözmək

**4** *əl çəkmək*
a) gözləmək
b) xatırlamaq
c) tərgitmək

**5** *pənah gətirmək*
a) kömək istəmək
b) sakitləşmək
c) sevinmək

**6** *kefi açılmaq*
a) darıxmaq
b) oynamaq
c) şadlanmaq

LAYİHƏ

**Ç** **Doğru, yoxsa yanlış?**

1. Hekayə xəritəsi bədii mətnlər əsasında tərtib olunur.
2. Məlumat vərəqində şəkillərdən də istifadə olunur.
3. Müqayisə cədvəlində anlayışların yalnız oxşar xüsusiyyətləri göstərilir.
4. Ssenari informativ mətnlər əsasında yazılır.
5. Yaddaş xəritəsi informativ mətndəki faktlar əsasında hazırlanır.

**D** **Lüğətdən istifadə etməklə söz boğçasında verilmiş sözlərin mənasını müəyyən edin. Karate və boks haqqında Venn diaqramı tərtib edin.**


karate


boks

**Söz boğçası**
- rinq
- tatami
- kimono
- nokaut
- raund

**E** **Uyğunluğu müəyyən edin.**

1. Lətifə
2. Təmsil
3. Əfsanə

a) Əsas obrazlar bitki, heyvan, cansız varlıqlar olur.
b) Məzmunu möcüzəli əhvalatla bağlı olur.
c) Oxucunu güldürmək, əyləndirmək məqsədi daşıyır.

**Ə** **Cümlələrdəki sıra saylarını rəqəmlərlə ifadə edib köçürün.**

1. Nizami Gəncəvi on ikinci əsrdə yaşamışdır.
2. Aygün şahmat yarışında üçüncü yerə çıxdı.
3. Biletə görə iyirmi üçüncü sırada mən oturmalıyam.
4. Rasim yeddinci və on altıncı misalları həll edə bilmədi.

**F** **Uyğunluğu müəyyən edin.**

1. üç dost
2. tikanlı çəpər
3. palıd qozası
4. evə çatmaq

a) sifət, isim
b) isim, isim
c) isim, feil
ç) say, isim

**G** **Verilmiş sözlərə saitlə başlanan şəkilçilər əlavə edib köçürün.**

şanapipik | tük | kəpənək | təbrik | qatıq | dialoq | daraq

LAYİHƏ

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 3-cü sinifləri üçün*
*Azərbaycan dili fənni üzrə*
***dərslik***
*Tədris dili*
*(2-ci hissə)*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov** |
| | **Ülkər Nurullayeva** |
| | **Şəhla Zahidova** |
| | **İradə Bayramova** |
| | **Aysel Xanalıyeva** |
| | **Könül Cəlilova** |
| **Layihə rəhbəri** | **Rafiq İsmayılov** |
| Dil redaktoru | **Dilrübə Cəfərova** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Rəssam | **Elmir Məmmədov** |
| Korrektor | **Fəridə Ziyadova** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8403-1-5

Hesab-nəşriyyat həcmi 10,8. Fiziki çap vərəqi 13.
Səhifə sayı 104. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __. Tiraj: . Pulsuz. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 25.05.2022

Çap məhsulunu hazırlayan:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

LAYİHƏ

Pulsuz

**Əziz məktəbli !**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!



LAYİHƏ